# KURİKULUM ANLAYIŞI BARƏDƏ

Kurikulum təhsilin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə əks etdirən konseptual sənəddir.

Kurikulum (curiculum)latın sözü olub, lüğəti mənası "kurs, elm, yol, qaçış, istiqamət" deməkdir. Curiculum sözünə ilk dəfə Leyden (1582-ci il) və Qlarqo (1633-cü il) şəhərlərinin universitetlərinin sənədlərində rast gəlinir. 1876-cı ildən etibarən ondan bir termin kimi istifadə olunmağa başlanmışdır.

İlk fənn kurikulumları 1918-ci ildə ABŞ-da meydana gəlmişdir. 1970-ci illərdən sonra kurikulum nəzəriyyəsi formalaşmışdır. Azərbaycanda bu termindən keçən əsrin 90-cı illərinin sonundan başlayaraq istifadə olunur.

Kurikulum islahatları Azərbaycan hökuməti ilə Dünya Bankının Beynəlxalq İnkişaf Assosiasiyası arasında bağlanmış ilk kredit sazişi əsasında başlayıb. 15 iyun 1999-cu il tarixində "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" təsdiq olunmuşdur.

## Kurikulum islahatını zəruri edən səbəblər:

1. Planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid.
2. Cəmiyyətdə yeni ictimai münasibətlərin yaranması.
3. Dünya təhsil sisteminə inteqrasiya.
4. Mövcud ümumi təhsil proqramlarının müasir tələblərə cavab verməməsi.
5. Təhsilin məqsəd və vəzifələrinə yeni baxış və yanaşmaların formalaşması.
6. İnformasiya əsrinin tələbləri.
7. Yaşayış tərzi.
8. Ünsiyyət tərzi.

## Təhsil islahatlarının mərhələləri:

| *Mərhələ* | *Dövr* | *Məzmunu* |
|---|---|---|
| I mərhələ | 1999 | normativ hüquqi bazanın yaradılması |
| II mərhələ | 2000-2003 | öyrədici innovasiya |
| III mərhələ | 2003-2013 | tətbiqetmə |

## Təhsil islahatları ilə bağlı dövlət sənədləri.

| *Sənədin adı* | *Təsdiqi* |
|---|---|
| Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli kurikulumu) | ARNKQ.30 oktyabr 2006-cı il №233 |
| Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası | ARNKQ.13 yanvar 2009-cu il № 9 |
| "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu | ARP 19 iyun 2009-cu il |
| "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" | ARNKQ. 3 iyun 2010-cu il №103 |
| Ümumi təhsil məktəblərində və ilk peşə- ixtisas təhsili müəssisələrində təhsilalanların qiymətləndirilməsi və yekun Dövlət Attestasiyasının aparılması Qaydaları | ARTNQ 3 may 2011-cu il № 736 |
| Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası | ARPS24 oktyabr 2013-cu il №13 |
| "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı" | ARPS 19 yanvar 2015-ci il |

Səriştə (kompetensiya) əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir.

Hər hansı bir fəaliyyəti həyata keçirmək üçün vacib olan və praktikada səmərəli tətbiq edilən biliklər+bacarıqlar+vərdişlər+dəyərlər+ keyfiyyətlər= kompetensiyalar adlanır.

"Açar" kompetensiyalar öz imkanlarının həyata keçirilməsində və inkişafında, fəal vətəndaşlığında, sosial fəallığında, ümumiyyətlə, əmək məşğuliyyətində hər bir insana vacib olan kompetensiyalar açar kompetensiyalar hesab olunur.

Onlar, cavan nəslin müstəqil həyata hazır olmasında gələcək təlim və əmək fəaliyyəti üçün bazanın yaradılmasında ömür boyu inkişafın təmin olunmasında əhəmiyyətli rol oynayır. Müxtəlif kompetensiyaların cəmi metakompetensiyalar adlanır. Məsələn:

| *Əsas kompentensiyalar* | *Metakompetensiyalar* |
|---|---|
| Ana dilində ünsiyyət kompetensiyası. Xarici dillərdə ünsiyyət kompetensiyası | tənqidi təfəkkür |
| Riyazi savad, elm və texnologiyada əsas kompetensiya | yaradıcı yanaşma |
| Kompüter savadı kompetensiyası | təşəbbüskarlıq |
| Müstəqil öyrənmə kompetensiyası | problemlərin həlli |
| Sosial və vətəndaşlıq kompetensiyası | riskin qiymətləndirilməsi |
| Məlumatlılıq və mədəni sahədə özünü ifadə etmək kompetensiyası | hisslərin konstruktiv idarə edilməsi |
| Yenilik və sahibkarlıq kompetensiyası | qərarların qəbul edilməsi |

## Azərbaycan Respublikasında təhsilin pillələri və səviyyələri

| Pillə | Səviyyə |
|---|---|
| **Məktəbəqədər təhsil** | 0-3 yaş səviyyəsi |
| | 3-6 yaş səviyyəsi |
| **Ümumi təhsil pilləsi** | Tam orta təhsil |
| | Ümumi orta təhsil |
| | İbtidai təhsil |
| **İlk peşə ixtisas təhsili** | |
| **Orta ixtisas təhsili** | |
| **Ali təhsil** | Doktorantura |
| | Magistratura |
| | Bakalavriat |

## Fənn kurikulumunun səciyyəvi xüsusiyyətləri:

1. Şəxsiyyətyönümlülük.
2. Şagirdyönümlülük.
3. Nəticəyönümlülük.
4. Tələbyönümlülük.
5. İnteqrativlik.
6. Qiymətləndirmə standartları.

Kurikulumun "Şəxsiyyətyönümlülük", "Şagirdyönümlülük" və "Nəticəyönümlülük" yanaşmaları təlimin mərkəzində şagirdin olmasını göstərir. Bu yanaşmada xüsusən təlim məqsədlərinin yazılışında da əks olunur. Kurikulum xüsusiyyətlərinin təlim-tərbiyə prosesində böyük faydası var: təlim-tərbiyə prosesini daha səmərəli edir, təcrübə yönüm-

lü bacarıqlar formalaşdırmağa imkan yaradır. Bunundan əlaqədar müəllimin qarşısına yeni tələblər qoyulur.

## Kurikulum və ənənəvi tədris proqramı

| № | Ənənəvi tədris proqramı | Kurikulum |
|---|---|---|
| 1 | Bilikyönümlüdür | Şəxsiyyətyönümlüdür |
| 2 | Müəllimyönümlüdür | Şagirdyönümlüdür |
| 3 | Fənyönümlüdür | Nəticəyönümlüdür |
| 4 | Təklifyönümlüdür | Tələbyönümlüdür |
| 5 | Fəndaxili və fənlərarası əlaqə məqsədyönümlü və sistemli xarakter daşıyır | İnteqrativlik əks xarakterə malik olur |
| 6 | Fənlər üzrə qiymət normalarını əhatə edir | Qiymətləndirmə standartlarını və mexanizmlərini əhatə edir |

**Şəxsiyyətyönümlülük** –Təhsil alanın idraki, ünsiyyət və psixomotor fəaliyyətləri əsasında həyati bacarıqlarını inkişaf etdirməklə onlarda milli və bəşəri dəyərlərin formalaşdırılmasıdır.

**Şagirdyönümlülük** – Təhsil sahəsində fəaliyyətlərin təhsilalanların mənafeyinə, maraq və tələbatlarının ödənilməsinə, istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına xidmət etməsidir.

**Nəticəyönümlülük** - Nəzərdə tutulan təlim nailiyyətlərinin nəticələr formasında müəyyən edilməsidir.

**Tələbyönümlülük** – Fərdi, cəmiyyətin və dövlətin dəyişən ehtiyac və tələbatlarının nəzərə alınmasıdır.

**İnteqrativlik** – Təhsilin məzmun komponentlərinin bir- biri ilə və həyatla sistemli şəkildə əlaqələndirilməsidir.

**Qiymətləndirmə standartları** – Təhsil alanların nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir.

# Fənn kurikulumunun strukturu

Fənn kurikulumunun strukturunda fənnin məzmunu (fənnin məqsədi, məzmun xətti, standartlar,alt standartlar), təlim strategiyaları, qiymətləndirmə mexanizmləri , qiymətləndirmə standartları, qiymətləndirmənin növləri, üsulları və vasitələri əks olunur.



## Fənn kurikulumunun məzmununun quruluşu




- Məzmun xətti - siniflər üzrə dəyişməzdir. Bir rəqəmlə ifadə olunur.
- Əsas standart - əsasən dəyişməzdir. İki rəqəmlə ifadə olunur.

Əsas standartın funksiyaları aşağıdakılardan ibarətdir.

1. Fənlər üzrə müəyyən olunan təlim nəticələrini məzmun xətləri üzrə ümumi şəkildə ifadə edir.
2. Sinif və fənlər üzrə summativ qiymətləndirmənin aparılmasını təmin edir.

- Alt standart - hər sinif üzrə təlimin məzmununu müəyyən edir, üç rəqəmlə ifadə olunur. Alt standart hər hansı əsas standartın tərkib hissəsi kimi çıxış edir.

Alt standartın funksiyaları aşağıdakılardan ibarətdir.

1. Təlim məqsədlərinin dəqiq müəyyən olunması üçün etibarlı zəmin yaradır.
2. Təlim strategiyalarının düzgün seçilməsində mühüm rol oynayır.
3. Təlimdə inteqrativliyi təmin edir
4. Təlimin məzmununun davamlı inkişafını təmin edir
5. Sinif və fənlər üzrə summativ qiymətləndirmənin aparılmasını təmin edir.

## Məzmun standartının quruluşu

**Məzmun standartı = bilik + fəaliyyət**

Birinci komponent şagirdin öyrənəcəyi biliyi, ikinci komponent isə şagirdin nümayiş etdirdirəcəyi fəaliyyəti əhatə edir.

**Biliklər və fəaliyyətlər**

Üç cür biliklər vardır: deklarativ, prosedural, kontekstual

**Deklarativ bilik** – Müəyyən fənn üzrə məlumat xarakterli biliklərdir. Bunların sırasına artıq mövcud olan mühüm anlayışlar və faktlar, terminologiya və təriflər, hər hansı bilik sahəsini dərk etmək və problemləri həll etmək üçün vacib olan məlumatlar daxildir

**Prosedural bilik** – prosesi ehtiva edir. Bu bilik hər hansı fənn üzrə mühüm vərdiş və proseslər kimi qəbul edilə bilər. Bu zaman uşağın fəaliyyəti və yaradıcılığı öndə dayanır. Prosedural bilik hər hansı fənn və ya bilik sahəsində fəaliyyətin icrasına kömək edən prosedur qaydaları əhatə edən biliklərdir. Bunların sırasına tədqiqat, araşdırma və tətbiqetmə metod və texnikaları, alqoritmlər, xüsusi metodologiyalar daxildir.

**Kontekstual / konseptual bilik** – sadəcə prosedural və ya deklarativ biliyin əsasında qurulan biliyin yeni məzmununu təşkil edir. Konseptual bilik problemin həll edilməsi yolu ilə əldə olunan yeni biliklərdir. Bunların sırasına müəyyən bilik sahəsində münasib faktları ümumiləşdirən və əlaqələndirən şəxsin yaratdığı yeni konsepsiyalar, ümumiləşdirmələr, nəzəriyyələr, təsnifatlar, prinsiplər, modellər, strukturlar daxildir.

Məzmun standartının əsasında müxtəlif fəaliyyət növləri dayanır. İdraki (koqnitiv), emosional-affektiv (ünsiyyət) psixomotor olmaqla onlar 3 cür qruplaşdırılır. Hər bir fəaliyyət növü özünə xac olan fellərlə ifadə olunur.

**İdraki (koqnitiv)** tanımaq, izah etmək, nümunə göstərmək, istifadə etmək, təhlil etmək, müqayisə etmək, dəyərləndirmək və s.

1. **Emosional-affektiv (ünsiyyət)** izah etmək, təsvir etmək, şərh etmək, reaksiya vermək, təqdim etmək və s.
2. **Psixomotor** rəqs etmək, qaçmaq, yarmaq, rəsm çəkmək, quraşdırmaq və s.

## Təlim məqsədlərinin taksonomiyasına dair:

- Təlim məqsədləri bilik, bacarıq vərdiş və dəyərlərin formalaşmasını əks etdirir
- Taksonomiya təlim məqsədlərinin həm iyerarxiyasını, həm də təsnifatını özündə birləşdirir.
- Təlim məqsədlərinin taksonomiyası Benjamen Blum (ABŞ) tərəfindən 1956-cı ildən təklif olunmuşdur .

Psixopedaqoji araşdırmalara görə, taksonomiyalar üç istiqamətdə qruplaşdırılır: koqnitiv (idrakı), affektiv (emosional), psixomotor taksonomiyalar.

Azərbaycanda psixologiya elmləri doktoru, professor Əbdül Əlizadə ilk dəfə olaraq taksonomiyaları tətbiq etmiş, üç tərkibli taksonomiyalar yaratmışdır.

## İdrak taksonomiyası (Blum 1956)

| Səviyyə | Ümumi təlim nəticələri | Spesifik təlim nəticələri | Fəaliyyətin göstəriciləri |
|---|---|---|---|
| Bilmə | Ümumi terminləri bilir | Müəyyən edir, təsvir edir, sadalayır, sıralayır, seçir | Yadda saxlamaq, xatırlamaq, tanımaq, işarə etmək |
| Anlama | Fakt və prinsipləri anlayır | Fərqləndirir, izah edir, nümunələr gətirir | Izah etmək, bir ifadə vasitələrindən digər ifadə vasitələrinə keçirmək |
| Tətbiqetmə | Konsepsiya və prinsipləri yeni şəraitdə tətbiq edir | Dəyişir, hesablayır, istifadə edir, nümayiş etdirir | Problem həll etmə müəyyən nəticələr əldə etmək üçün informasiyaları tətbiq etmək |
| Analiz | İşin təşkili strukturunu təhlil edir | Ayırır, hissələrə bölür, əlaqələndirir, müəyyən edir | Onların bir yerdə necə mövcud olduğunu göstərmək üçün nəyisə parçalamaq, motivləri müəyyənləşdirmək |
| Sintez | əşyaları və ideyaları təsnif edərək sxemlər yaradır | Yaradır, tərtib edir, yazır, nitq söyləyir | Həm şifahi, yazılı formada, həm də fikrini ifadə edən obyekt ola bilən unikal, original məhsulu yaradılması |
| Dəyərləndirmə | Yazı materialının məntiqi ardıcıllığını qiymətləndirir | Müqayisə edir, qarşılaşdırır, mühakimə yürüdür | Məsələ haqqında mühüm qərarlar çıxarmaq, mübahisələri həll etmək |

Taksonomiya təlim prosesində böyük rol oynayır. Təlim prosesinin planlaşdırılmasından başlayaraq, idarə olunmasına qədər bütün mərhələlərdə ona istinad etmək zərurəti yaranır.

Araşdırmalar göstərir ki, taksonomiyalar təlim əhəmiyyəti baxımından aşağıdakı imkanlara malikdir.

- Təlim məqsədlərini düzgün müəyyənləşdirmək
- Problemləri düzgün müəyyənləşdirmək və şagirdlər üçün tapşırıqlar tərtib etmək
- Qoyulmuş məqsədlərə uyğun qiymətləndirmə vasitələrini seçmək
- Təlim nəticələrinə əsaslanaraq refleksiyanı düzgün keçirmək: bu və ya digər materialın öyrənilməsində şagirdlərin hansı çətinliklərlə qarşılaşdıqlarını müəyyən etmək.

# Təlim strategiyaları

1. Təlimin təşkilinə verilən əsas tələblər
2. Təlim fəaliyyətinin planlaşdırılması
3. Təlimin təşkili formaları
4. Təlimin təşkili üsulları

**1. <u>Təlimin təşkilinə verilən əsas tələblər:</u>**

1.1 Pedaqoji prosesin tamlığı

**1.2** Təlimdə bərabər imkanların yaradılması

**1.3** Şagirdyönümlülük

**1.4** Inkişaf yönümlülük

**1.5** Fəaliyyətin stimullaşdırılması

**1.6** Dəstəkləyici mühitin yaradılması

**2. <u>Təlim fəaliyyətinin planlaşdırılması:</u>** Planlaşdırmanın **2** növü vardır.

1. Perspektiv – illik planlaşdırma.
2. Gündəlik – gündəlik dərsin planlaşdırılması.

**Perspektiv planlaşdırma aşağıdakı qaydada aparılır:**

1. Məzmun standartlarına əsasən dərslikdəki tədris vahidi və mövzular dəqiqləşdirilir.
2. Hər bir mövzu üzrə reallaşdırılacaq məzmun standartları qruplaşdırılır.
3. Tədris vahidlərinin və mövzuların ardıcıllığı müəyyənləşdirilir.
4. Inteqrasiya imkanları müəyyənləşdirir.
5. Resurslar seçilir.
6. Məqsədyönlü vaxt bölgüsü aparılır.
7. Şagirdlərin təlim fəaliyyətinin qiymətləndirilməsi üçün meyarlar müəyyənləşdirilir və müvafiq vasitələr hazırlanır.

**Planlaşdırma ilə əlaqədar tövsiyələrdə göstərilir.**

- Standart və standartlar qrupuna müvafiq olaraq təlim məqsədləri müəyyənləşdirməkdə müəllim yaradıcı fəaliyyət göstərir
- İnteqrasiya üçün əlavə imkanlar müəyyən edilə bilər
- Əlavə resurslar seçilə bilər
- Mövzular üzrə vaxt bölgüsündə dəyişikliklər edilə bilər.

**Perspektiv planlaşdırmanın sxemi**

| Standartlar | Tədris vahidi | Mövzu | İnteqrasiya | Resurs | Qiymət-ləndirmə | Saat | Tarix |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |

## GÜNDƏLİK PLANLAŞDIRMA

- ✓ standart
- ✓ məqsəd (reallaşdırılacaq standartlar göstərilməklə)
- ✓ mövzu
- ✓ inteqrasiya
- ✓ iş forması
- ✓ iş üsulları
- ✓ resurslar

# Dərsin mərhələləri

I. Motivasiya. Problemin qoyulması
II. Tədqiqatın aparılması. Problemin həlli
III. Məlumatın mübadiləsi
IV. Məlumatın müzakirəsi
V. Nəticə və ümumiləşdirmə
VI. Produktiv (yaradıcı) tətbiqetmə, ev tapşırığı
VII. Qiymətləndirmə və refleksiya

**Fəal dərsin mərhələləri**

| Mərhələ | Nəticə |
|---|---|
| 1. Motivasiya (problemin qoyulması, fərziyyələrin irəli sürülməsi) | Tədqiqat sualı və fərziyyələr |
| 2. Tədqiqatın aparılması (fərziyyələri yoxlamaq üçün faktların axtarılması) | Tədqiqat işləri |
| 3. Məlumat mübadiləsi və müzakirəsi (əldə edilmiş məlumatların təqdim olunması, məlumatın müzakirəsi, təsnifi, əlaqələndirilməsi) | Məlumat mənbələri - müzakirə materialı, təşkil olunmuş məlumat |
| 4. Ümumiləşdirmə və nəticələrin çıxarılması (nəticələrin fərziyyələrlə müqayisəsi və onların təsdiq olub olmaması haqqında nəticənin çıxarılması) | Əldə olunmuş bilik (ümumiləşdirmə) |
| 5. Produktiv (yaradıcı) tətbiqetmə | Biliyi tətbiqetmə yolları və təcrübəsi |
| 6. Qiymətləndirmə və ya refleksiya (hər mərhələdə aparıla bilər) | Özünüqiymətləndirmə vərdişi, öyrənməyin qaydalarının mənimsənilməsi, müstəqil öyrənmək vərdişi. |

## ➢ Motivasiya. Problemin qoyulması

Dərsin ən mühüm və mürəkkəb mərhələlərindən biri-motivasiyadır. Psixoloji amil kimi motivasiya hər hansı fəaliyyətin mexanizmini işə salan sövqedici qüvvədir. Bu mərhələdə müəllim problemli vəziyyəti yaratmağı bacarmalıdır. Hər bir tədqiqatı başlamaq üçün problemi müəyyənləşdirmək lazımdır. Fəal dərsin birinci mexanizminə əsasən məhz problemin olması-idrak fəallığının yaranmasının başlıca addımı olur.Əsl problem həmişə çoxsaylı fərziyyələr,ehtimallar doğurur və bunları yoxlamaq üçün ilk növbədə tədqiqat sualı formalaşdırılmalıdır.Tədqiqat sualının verilməsi motivasiya mərhələsinin son nəticəsi olmalıdır.Məhz tədqiqat sualı yeni biliklərin kəşfinə aparan bələdçi "yolgöstərən ulduz" rolunu oynayır.

## ➢ Tədqiqatın aparılması. Problemin həlli

Problemin həlli üzrə irəli sürülən fərziyyələri təsdiq və ya təkzib edən, habelə qoyulan tədqiqat sualına cavab verməyə kömək edə biləcək faktları tapmağa imkan yaradır. Bu zaman yeni faktların öyrənilməsi və cavabların tapılması gedişində düşünmək və yeni bilgiləri kəşf etmək üçün münasib şərait yaranır. Tədqiqatın aparılması mərhələsinə dair müəllim aşağıdakı bilik, bacarıq və vərdişlərə malik olmalıdır:

- ✓ Tədqiqatın aparılması üzrə metodların seçilməsinə
- ✓ Tədqiqatın qrup şəklində və digər formada təşkili və aparılmasına
- ✓ Tədqiqatın aparılması üçün tapşırıq və bilik mənbələrinin seçilməsinə
- ✓ İş vərəqləri tərtib edilərkən təfəkkürün üç növü

(məntiqi təfəkkür, tənqidi təfəkkür və yaradıcı təfəkkür) üzrə tapşırıqlar hazırlamalıdır.

| Məntiqi təfəkkür | Tənqidi təfəkkür | Yaradıcı təfəkkür |
|---|---|---|
| Təsvir et, müqayisə et, oxşarlıqları və fərqləri tap, təsnif et | Müxtəlif baxış nöqtələrindən qiymətləndir. əhəmiyyətini, rolunu qiymətləndir | Hekayə, situasiya, nağıl, musiqi uydur. |
| Qur, dəyişdir, hesabla, sadələşdir. | Meyarları müəyyən et. Meyar cədvəlini tərtib et. | Sxem, maket, model, qrafik, kitab tərtib et. |
| Müəyyən et, öz tərifini ver, əlaqəni aşkar et | Səhvləri tap. Faktları uydurmadan seçib ayır. Mübahisəli məqamları aşkar et. | Proqnoz ver, müqayisə et və analoqu tap. İxtira et, yarat, başqa obyektə döndər. Yeni tətbiq üsulunu tap. |
| Sxem, qrafik, cədvəl düzəlt, tərtib et, davam et. | Tənqidi yanaş, düzgün olanı seç. | Dəyişikliklər et, yarat, yenidən tərtib et. Dəyişikliklər etməklə yarat. Quraşdır. |
| Təhlil et, izah et, şərh et, nəticə çıxar | Ən mühüm predmetləri və hadisələri müəyyən et, əhəmiyyətini sübüt et. | Yeni əsaslar üzərində təsnif et. Yeni şəraitə uyğun hala gətir. |
| Səbəbi tap | Öz ideyanı əsaslandır. | Öz şəxsi izahını ver. Problemi müəyyən et, fərziyyələr irəli sür. |
| Ümumiləşdir. əsas ideyanı seçib ayır. | Ən səmərəli yolu tap. | Mübaliğə et. Minimuma endir. |
| Mahiyyətini, mənasını ifadə et | Məsləhət ver. | Simvol (rəmz) şəklində təsvir et |

- **Məlumatən mübadiləsi**

Bu mərhələdə iştirakşıların tədqiqatın gedişində əldə etdikləri tapıntıların, yeni informasiyanın mübadiləsini aparırlar. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edir.

Bütün bilik, bacarıq və vərdişlərin, təfəkkürün müxtəlif növlərinin (məntiqi, tənqidi, yaradıcı) səfərbərliyini təmin edir.

- **Məlumatın müzakirəsi**

Müəllim fasilitasiya əsasında əldə edilmiş faktların məqsədyönlü müzakirəsinə və onların təşkilinə kömək edir. Informasiyanın təşkili bütün faktlar arasında əlaqələrin aşkara çıxarılmasına və onların sistemləşdirilməsinə yönəldilir. Nəticədə mövcud tədqiqat sualına cavabın cizgiləri aydın seçilməyə başlayır.

- **Nəticə və ümumiləşdirmə**

Şagirdlərə yeni bilginin kəşfi yolunda son addımı atmaq üçün konkret nəticəyə gəlməli və ümumiləşdirmələr aparmalıdırlar. Onlar nəinki əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı və irəli sürülmüş fərziyyələr ilə müstəqil olaraq tutuşdurmalıdır.

Dərsin kulminasiyasını isə bilgiləri məhz özləri kəşf etdikləri üçün şagirdlərin duyduqları, bənzərsiz sevinc və məmnuniyyət hissi təşkil edir.

- **Produktiv (yaradıcı) tətbiqetmə. Ev tapşırığı.**

Biliklərin mənimsənilməsinin başlıca meyarı onun yaradıcı surətdə tətbiqidir. Yaradıcı tətbiqetmə biliyi möhkəmləndirir, onun praktiki əhəmiyyətini uşağa aydınlığı ilə göstərir. Bu mərhələ vaxt etibarı ilə yalnız bir dərslə məhdudlaşmaya da bilər, yəni sonrakı dərslərdə də həyata keçirilə bilər.

➢ **Qiymətləndirmə və ya refleksiya**

Fəal dərsin fərqli mərhələlərindən biri refleksiya mərhələsidir. Refleksiyanın nəticəsində şagird öz tədqiqat fəaliyyətinin əsas mərhələlərini dərk etmiş olur. **Refleksiya** – artıq başa çatmış prosesin şüurda inikasıdır. Təlim prosesinin refleksiyası biliklərin mənimsənilməsinin bütün mərhələlərini təhlil etməyə və dərindən başa düşməyə imkan verən başlıca mexanizmlərdən biridir.

Fəal dərsin quruluşu tədqiqat prosesinin mərhələlərini xatırladır (təlim prosesinin mərkəzi tətqiqatdır) ənənəvi dərs illüstrativ-izahedici xarakter daşıyır (təlim prosesinin mərkəzi- mühazirədir)

✓ ənənəvi dərsdə yeni məlumatlar dərsin əvvəlində müəllim tərəfindən şagirdə çatdırıldığı halda, fəal dərsdə bu məlumatlar dərsin axırında şagirdin özü vasitəsi ilə əldə edilir

✓ hər iki dərsdə tətbiq etmə mərhələsi axırda olur, lakin fəal dərsdə bu mərhələ daha yaradıcı xarakter daşıyır

➢ **Qiymətləndirmənin istiqamətləri**

Qiymətləndirmənin istiqamətləri dedikdə, ayrı-ayrı forma, məzmun və məqsədə malik olan qiymətləndirmələr nəzərdə tutulur. Ölkəmizdə qiymətləndirmə aşağıdakı istiqamətlərdə aparılır:

✓ beynəlxalq qiymətləndirmə;

✓ milli qiymətləndirmə;

✓ məktəbdaxili qiymətləndirmə.

<u>Beynəlxalq qiymətləndirmə :</u>

- Beynəlxalq standartlara əsaslanır.
- Cəmiyyətdə inteqrasiya prosesinin nəticəsi kimi təzahür edir.
- Hər bir ölkənin vətəndaşına digər ölkədə təhsil alma imkanı yaradır.
- Beynəlxalq və milli ekspertlər tərəfindən keçirilir.

<u>Milli qiymətləndirmə:</u>

- Təhsil Nazirliyi tərəfindən keçirilir.
- Bütün pillələr və səviyyələr üzrə təlim nəticələrinin səviyyəsini müəyyən etmək məqsədi ilə aparılır.

Məktəbdaxili qiymətləndirmə:

- Diaqnostik - ( ilkin səviyyənin qiymətləndirilməsi)
- Formativ - (irəliləmə və geriləmələrin izlənilməsi)
- Summativ - ( böyük və kiçik)

Qiymətləndirmə müxtəlif üsullara həyata keçirilir. Bu prosesdə müxtəlif qiymətləndirmə vasitələrindən istifadə olunur. Qiymətləndirmənin məqsədindən asılı olaraq üsul və vasitələr dəyişir.

**Qiymətləndirmə vasitələrinin hazırlanması prinsipləri**

**1.** Qiymətləndirməni əvvəlcədən planlaşdırılması. Dərs hazırlayan zaman qiymətləndiriləcək fəaliyyəti planlaşdırmaq üçün məqsədləri müəyyən edin. Hansı qiymətləndirmələrdən və hansı vaxt ərzində istifadə edəcəyinizi planlaşdırın. Qiymətləndirmə bir sıra təlim nəticələrini əhatə etməlidir.

**2.** Qimətləndirmənin tez-tez aparılması.Təlim fəaliyyətində şagirdin səviyyəsini düzgün müəyyənləşdirmək üçün prosesdə kifayət qədər qiymətləndirmələr aparın.Tez-tez aparılan qiymətləndirmələr müəllimə imkan verir ki,proses davam etdikcə sinifdə olan inkişafı müəyyən etsin və bunun vasitəsilə də təlim metodologiyası ilə bağlı zəruri qərarları qəbul etsin.

**3.** Fərqli qiymətləndirmə vasitələrindən istifadə olunması. Şagirdlərin hamısı öz qabiliyyətini konkret bir şəkildə göstərə bilmir.Bəzi şagirdlər yazı işlərini yaxşı yerinə yetirir,digər şagirdlər konkret layihə üzərində işləyərkən özünü göstərə bilir.Odur ki, qiymətləndirmə vasitələrini hazırlanmasında yaradıcı cəhət ön planda dayanmalıdır.

**4.** Qiymətləndirmə nəticələrinin qeydə alınması. Qiymətləndirmə nəticəsində şagirdlərin təlim fəaliyyəti haqqında vaxtında və düzgün qeydiyyat aparın. Qiymətləndirmənin tarixi, vaxtı, təsviri, şagidlər barədə məlumat və ayrı – ayrı şagirdlərin göstəriciləri ilə bağlı əlavə qeydləri dəqiq yazın. Düşüncələrinizi və qənaətlərinizi qiymətləndirmədən sonra deyil, qiymətləndirmə zamanı yazın. Bu subyektivliyi azaldır.

**5.** Nailiyyətlərin qiymətləndirilməsi zamanı nailiyyət faktorları (davranış, münasibət, çalışqanlıq, motivasiya) arasında fərqin müəyyən olunması.

**6.** Hər bir qiymətləndirmənin nisbi çəkisinin aydın şəkildə müəyyən olunması.

**7.** Fəaliyyət meyarlarını əhatə edən rubriklərin hazırlanması.

**Qiymətləndirmə vasitələrinin keyfiyyətinin təmin edilməsi.**

Qiymətləndirmə qərəzsiz və təhrifsiz olmalıdır.

Etibarlılıq və düzgünlük bu keyfiyyətlərə nail olmaq üçün zəruri olan konsepsiyalardır.

## Diaqnostik qiymətləndirmə

Şagirdin bilik və bacarıqlarının ikin səviyyəsinin müəyyənləşdirilməsi, birbaşa müəllimin təlim strategiyalarının seçilməsinə xidmət edir. Diaqnostik qiymətləndirmə, əsasən, dərs ilinin, tədris vahidlərinin əvvəlində, şagird başqa ümumtəhsil müəssisəsindən gəldikdə, sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, fərdi yanaşmanı təmin etmək və təlim strategiyasını müəyyənləşdirmək məqsədi ilə müəllim tərəfindən aparılır. Bu qiymətləndirmənin nəticələri jurnalda qeyd olunmur, müəllimin qeyd dəftərində öz əksini tapır. Diaqnostik qiymətləndirmədə istifadə olunan əlverişli üsul və vasitələr:

| Üsullar | Vasitələr |
|---|---|
| Tapşırıq vermə | Çalışmalar |
| Müsahibə | Müəllimin qeydiyyat vərəqi |
| Müşahidə | Müşahidə vərəqi |
| Valideynlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət və müəllimin sorğu vərəqi |

## Formativ qiymətləndirmə

Məktəbdaxili qiymətləndirmənin əsas mahiyyətini formativ qiymətləndirmə təşkil edir. Formativ qiymətləndirmənin əsas mahiyyəti şagirdin təlim fəaliyyətinin daim izlənilməsidir. Bu qiymətləndirmə şagirdin bilik və bacarığını formalaşdırmaqla onun təlim nəticələrinə nail olması məqsədi ilə aparılır. Formativ qiymətləndirmədə istifadə olunan əlverişli üsul və vasitələr:

| **Üsullar** | **Vasitələr** |
|---|---|
| Müşahidə | Müşahidə vərəqləri |
| Şifahi sual-cavab | Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi |
| Tapşırıqvermə | Çalışmalar |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət-sorğu vərəqi |
| Oxu | Mətn |
| Yazı | Yazı işləri |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli |
| Şifahi və yazılı təqdimat | Meyar cədvəli |
| Özünü qiymətləndirmə | Özünüqiymətləndirmə vərəqləri |

Fənn üzrə aparılan formativ qiymətləndirmə şagirdin ehtiyaclarını öyrənmək, uğur qazana bilməməsinin səbəblərini araşdırmaq və onun inkişafını təmin etmək məqsədi ilə müntəzəm olaraq həyata keçirilir.

## Summativ qiymətləndirmə

Summativ qiymətləndirmə ümumiləşdirici qiymətləndirmədir. Təhsilin hər hansı mərhələsində şagirdlərin əldə etdikləri nailiyyətlərin qiymətləndirməsi kimi meydana çıxır. Məzmun standartlarının mənimsəmə səviyyəsinin etibarlı göstəricisi kimi təzahür edir. Kiçik summativ və böyük summativ olmaqla iki yerə ayrılır. Summativ qiymətləndirmə tədris vahidinin, yarımilin sonunda aparılır. Summativ qiymətləndirmədə aşağıdakı üsul və vasitələrdən istifadə olunur.

| Üsullar | Vasitələr |
|---|---|
| Layihə | Təqdimat |
| Şifahi sorğu | Sual-cavab |
| Test | Test tapşırıqları |
| Tapşırıqvermə | Tapşırıq, çalışma və laboratoriya işləri |
| Yaradıcılıq və əl işləri | Fənlərə müvafiq olaraq rəsmlər hazırlanan məmulatlar və digər əl işləri |

Qiymətləndirmə standartları 4 səviyyədə müəyyən olunur.

- Birinci səviyyə- aşağı
- İkinci səviyyə- orta
- Üçüncü səviyyə- yüksək
- Dördüncü səviyyə- ən yüksək

Qiymətləndirmə vasitələri hazırlanarkən sualların çətinlik səviyyəsi aşağıdakı kimi bölüşdürülür.

- 1-ci səviyyə üzrə suallar – 20%
- 2-ci səviyyə üzrə suallar – 30%
- 3-cü səviyyə üzrə suallar – 30%
- 4-cü səviyyə üzrə suallar – 20%

Yarımillik qiymət aşağıdakı düsturla çıxarılır.

$$Y_i = \frac{KSQ_1+KSQ_2+\cdots+KSQ_n}{n} * \frac{40}{100} + BSQ * \frac{60}{100}$$

$Y_i$ – yarımillik
$KSQ$– kiçik summativ qiymət
$n$ – kiçik summativ qiymətləndirmənin sayı
$BSQ$ – böyük summativ qiymət

Şagirdin illik qiyməti aşağıdaskı cədvələ uyğun hesablanır.

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 2 | 2 | 2 |
| 2 | 3 | 3 |
| 2 | 4 | 3 |
| 2 | 5 | 4 |

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 3 | 2 | 2 |
| 3 | 3 | 3 |
| 3 | 4 | 4 |
| 3 | 5 | 4 |

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 4 | 2 | 2 |
| 4 | 3 | 4 |
| 4 | 4 | 4 |
| 4 | 5 | 5 |

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 5 | 2 | 2 |
| 5 | 3 | 4 |
| 5 | 4 | 5 |
| 5 | 5 | 5 |

| № | Tapşırıqların faizlə miqdarı | Şagirdin qiyməti |
|---|---|---|
| 1 | (0%- 40%] | 2 (qeyri - kafi) |
| 2 | (40%-60%] | 3 (kafi) |
| 3 | (60%-80%] | 4 (yaxşı) |
| 4 | (80%-100%] | 5 (əla) |

## Rubrik

Rubrik – meyar əsasında şagirdin nailiyyət səviyyəsinin qiymətləndirmə şkalasıdır.

- Rubrik qiymətləndirmənin həm üsulu, həm də vasitəsi kimi çıxış edir.
- Qiymətləndirmə şkalası nailiyyət səviyyələrinə qiymət verilməsi üçün mexanizmdir.
- Rubrik – formativ qiymətləndirmənin ən faydalı üsullarından biridir. Lakin o həm diaqnostik , həm də summativ qiymətləndirmədə istifadə oluna bilər.

Rubriklər iki növə ayrılır: Holistik və analitik.

o Holistik rubrik – şagirdin fəaliyyətinə verilən tələbləri meyarlar şəklində təsvir edir və onların nailiyyət səviyyələrini göstərir.

o Holistik rubrikin üstün cəhətləri: sürətli qiymətləndirmə şagird nailiyyəti haqqında ümumi mənzərəni təsvir edir.

o Holistik rubrikin zəif cəhətləri: təfərrüatlı informasiya vermir, bir ümumi qiymətin verilməsi çətin ola bilər.

o Analitik rubrik – şagirdin işinin (fəaliyyətinin) çox şahəli aspektlər üzrə ayrı-ayrı qiymətlər təyin edir.

o Analitik rubrikin üstün cəhətləri: daha təfərrüatlı informasiya verir, hər bir şagird, sinif və illər üzrə ardıcıl qiymətləndirilir.

o Analitik rubrikin zəif cəhətləri: qiymətləndirmə üçün daha çox vaxt tələb olunur.

## Fəal təlimin formaları

3. **İş formaları** dörddür: qrupda iş, cütlərlə iş, frontal iş (bütün sinif ilə) və fərdi iş.

***Kollektivlə, və ya böyük qrupla (siniflə) iş forması:***

Kollektivdə işləmək, kollektiv fəaliyyətə alışmaq bacarığının bünövrəsi qoyulur. Şagirdlərdə ünsiyyətyaratma bacarığının təşəkkülü və inkişafı təmin edilir.

| **Müsbət cəhəti:** | **Mənfi cəhəti:** |
|---|---|
| Vaxt itkisinə yol verilmir. | Zəif şagirdlərlə məşğul olmaq olmur. İşgüzar səs-küy yaranır. |

***Kiçik qruplarla iş forması:***

Bu prosesdə şagirdlərin müzakirə etmək, fikir mübadiləsi aparmaq, mühakimə yürütmək və birgə fəaliyyət bacarıqları inkişaf edir.

| Müsbət cəhət: | Mənfi cəhət: |
|---|---|
| Şagirdlərin faliyyəti öndədir. | Kimin hansı biliyə malik olduğu,hansı iş bölgüsünü həyata keçirdiyini müəyyənləşdirmək və qiymətləndirmə çətinləşir. |

*Cütlərlə iş forması:*

Şagirdlər təlim tapşırıqlarını birgə yerinə yetirirlər. Bu iş forması şagirdlərə daha yaxından əməkdaşlıq etməyə və eləcə də ünsiyyət qurmağa, məsuliyyəti bölüşdürməyə optimal imkan yaradır.

| **Müsbət cəhət:** | **Mənfi cəhət:** |
|---|---|
| Şagirdlər daha yaxından əməkdaşlıq edir. | Zəif şagirdi ləngidir. |

*Fərdi iş forması:*

Şagird fəaliyyətini izləmək, potensial imkanlarını müəyyənləşdirmək və inkişaf etdirmək məqsədi daşıyır. Bu təlim forması- şagirdin sərbəst düşünməsi üçün real imkanlar yaradır.

| **Müsbət cəhət:** | **Mənfi cəhət:** |
|---|---|
| Bir şagirdi mükəmməl öyrətmək və eyni zamanda, onun müsbət və mənfi cəhətini izləmək, mənimsəmənin necə olduğunu bilmək və eləcə də qiymətləndirmək asandır. | Artıq vaxt itkisi yaranır. |

- Müasir təlim zamanı müxtəlif iş formalarının tətbiq edilməsi təlim prosesinin xarakterini kəskin şəkildə dəyişdirir və şagirdin inkişafında imkanlar yaradır.
- Təlim, tərbiyə və inkişaf məsələləri burada sıx əlaqədə olur. Şagirdlərin idrak fəaliyyəti artması, geniş həcmdə məlumatın qavranılması, ünsiyyət və əməkdaşlıq vərdişlərinin formalaşdırılması və s. məqsədlərə qrup işi vasitəsi ilə nail olunur.

- Qrup işinin səmərəli təşkil olunması müəllimin öz vəzifələrini, şagirdin isə iş qaydalarını bilməyindən asılıdır.

4. **Fəal təlimin üsullarına** BİBÖ, beyin həmləsi, kiçik qrupda müzakirə, rollu oyun, venn diaqramı, şaxələndirmə, akvarium, insert,qərarlar ağacı, ziqzaq, klaster və s. aiddir. Bu üsullar interaktiv xarakter daşımaqla müasir xarakterinə görə seçilir. Onlar məqsəd və məzmundan asılı olaraq hər hansı təlim prosesində istifadə olunması mümkün hesab edilir.

Vəsaitdə verilən metodiki üsullar dərsin hər mərhələsində istifadə oluna bilər.

## Beyin həmləsi

Bu üsul əqli hücum da adlandırılır.Öyrənənlərdə yeni mövzuya maraq oyatmaq, habelə onların nəyi yaxşı (və ya pis) bildiklərini aydınlaşdırmaq məqsədilə bu üsuldan istifadə olunur. Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə öyrənənlərin diqqətinə çatdırırlır. Öyrənənlər suallara əsasən fikirlərini bildirirlər. Bütün ideyalar şərhsiz və müzakirəsiz yazıya alınır. Yalnız bundan sonra söylənilmiş ideyaların müzakirəsi, şərhi və təsnifatı başlayır. Aparıcı ideyalar yekunlaşdırılır, öyrənənlər söylənmiş fikirləri təhlil edir, qiymətləndirilir.

## BİBÖ(KWL)

Bu vəsaitdə təqdim olunan dərslərin yazılmasında müxtəlif metodlardan istifadə olunmuşdur ki, onlardan biri də BİBÖ-cədvəlidir. (B-bilirəm, İ-istəyirəm bilim, Ö-öyrəndim). Bu metod kifayət qədər səmərəli olsa da, ondan heç də həmişə istifadə etmək mümkün deyildir. Bu metod öyrənənlərə keçmiş bilikləri dərinləşdirmək və yeni biliklərlə əlaqələndirmək imkanı verir. O, ilk mənbə, sənəd və mətnlərlə iş zamanı tənqidi təfəkkür bacarıqlarının inkişaf etdirilməsində uğurla istifadə olunur.

## BİBÖ-Bilirəm/İstəyirəm bilim/Öyrəndim

BİBÖ aşağıdakı mərhələlər üzrə aparılır.

1. Problem müəllim tərəfindən elan edilir.

2. Müəllim lövhədə 3 sütundan ibarət cədvəl qurur və aşağıdakı bölmələri qeyd edir.-Bilirəm/Istəyirəm bilim/Öyrəndim

**Tərtib olunmuş cədvəl bir neçə mərhələdə istifadə olunur.**

1. Öyrənənlər cütlərə bölünərək verilmiş mövzunu əvvəlki bilik və bacarıqlar əsasında müzakirə edir və movzu üzrə anlayışların ümumi siyahısını tərtib edirlər.

2. Müəllim öyrənənlərin təqdimatını təşkil edir və onlar tərəfindən hazırlanmış məlumatlar cədvəlin birinci tərəfinə yazılır.

3. Sonra öyrənənlər ümumi müzakirə gedişində toplanmış məlumatlar üzrə suallar təklif edir. Bu deyilənlər cədvəlin orta hissəsinə yazılır.

4. Mətni (sənəd ,mənbə)bir daha nəzərdən keçirib öyrənənlər hazırlanmış suallara cavab tapırlar.Yeni məlumatlar cədvəlin üçüncü hissəsinə yazılır.

5. Əgər öyrənənlər bir neçə sualı cavablandırmağa çətinlik çəksə,müəllim onlara tədqiqat işini istiqamətləndirilməsində yardımçı olur (Ədəbiyyatlar, internet saytları və s istifadə haqqında)

| **Bilirəm** | **İstəyirəm bilim** | **Öyrəndim** |
|---|---|---|
| | | |

**Klaster (Şaxələndirmə)**

Lövhədə və ya iş vərəqlərində dairə çəkilir və onun mərkəzində yazılmış anlayış ilə bağlı söz və ya ifadələr söyləmək öyrənənlərə tapşırılır.Mərkəzdə yazılmış anlayışdan başlayaraq hər növbəti söz onunla əlaqəli sözlər xətlərlə birləşdirilir.

Vaxt bitənə qədər mümkun qədər çox fikir yazmaq və onları əlaqələndirmək tövsiyə olunur.Vaxt bitəndən sonra alınan klaster müzakirə edilir və ümumiləşdirmə aparılır.



**Suallar**

Suallar dərs prosesində tədqiqatların səmərəli qurulmasını stimullaşdırır. Öyrənənlərin idrak fəallığının artırılmasında böyük rol oynayır.

Sualların sayının 4-5 arasında olması məqsədə uyğundur.Sualların qoyuluşu tənqidi təfəkkürün inkişafına doğru yönəldilməsi, məntiqi ardıcıllıq gözlənilməli, məzmunlu və mövzu ilə bilavasitə əlaqəli olmalıdır.

**Mühazirə**

Mühazirə məlumatın öyrənənə ötürülmə üsuludur.Bu üsuldan mövzu ilə bağlı məzmunun zənginləşdirilməsi, tamamlanması məqsədi ilə istifadə etmək məqsədə uyğundur. Belə qısa mühazirələr 10-15 dəqiqə ərzində aparılır.

**Mühazirə ilə bağlı aşağıdakı məsələlərə nəzər yetirmək məqsədə müvafiqdir.**

- Mühazirənin məqsəd və vəzifələrini dəqiq müəyyənləşdirmək.
- Plan tərtib etmək və onu öyrənənlərə paylamaq(və ya lövhədə yazmaq).

• Əyani və texniki vasitələrdən istifadə etmək

Müəllim mühazirə prosesini verbal (suallar vermək) və vizual (öyrənənlərin sifətlərinin ifadəsini və jestlərini müşahidə etmək) tənzimləməlidir.

**Anlayışın çıxarılması**

Bu üsul oyun-tapmaca formasında keçirilir və öyrənənlərdə yüksək fəallıq yaradılır. Müəllim lövhədə kart asır,onun arxasında öyrənənlərin tapacağı anlayışı yazır.Kartın yazı olmayan tərəfini öyrənənlərə göstərir və gizlədilmiş anlayışın xüsusiyyətlərinə aid 2 və ya 3 yönəldici söz sadalayır və ya yazır.Öyrənənlər həmin xüsusiyyətlərə uyğun olaraq gizlədilmiş anlayışı tapırlar.

Əgər öyrənənlər anlayışı tapmaqda çətinlik çəksələr,müəllim əlavə olaraq yeni xüsusiyyətlər sadalayır.

Öyrənənlər öz fərziyyələrini dedikdən sonra müəllim bu tapmacanın tapılıb-tapılmamağını hamıya çatdırır və kartlarda yazılan sözləri açıqlayır.




**Söz assosiasiyaları**

Bu üsuldan istifadə edilərkən öyrəniləcək mövzuya aid əsas söz (və ya söz birləşməsi) lövhəyə yazılır.Öyrənənlər həmin söz ilə bağlı ilk xatırladıqları fikirləri söyləyir və həmin fikirlər müəllim tərəfindən lövhədə qeyd edilir. Mövzu ilə bağlı olan sözlər deyilən fikirlərin arasından seçilir və əlaqələndirilir, onlardan anlayış və yaxud ideya

çıxarılır. Bu anlayış əsasında yeni materialın öyrənilməsinə başlanılır. Bu üsul həm də şifahi formada tətbiq edilə bilər.

**Müzakirə**

Müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi,problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Müzakirədə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, öyrənənlərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir.

Müzakirə apararkən əvvəlcədən öyrənənlərə müzakirə qaydaları xatırladılır. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və öyrənənlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı "Bəli" və ya "Xeyr" olan qapalı suallar vermək məqsədə uyğun hesab edilmir.

Müzakirədə mövzuya aid nə baş verdi? Nə üçün baş verdi? Bu başqa cür ola bilərdimi və necə? Siz bu vəziyyətdə nə edərdiniz? Sizin fikrinizcə, həmin obraz nə hiss etdi? Siz bu şəraitdə nə hiss edərdiniz? Bu düz idimi? Nə üçün? kimi suallardan istifadə olunur.

**Akvarium**

Bu üsulun məqsədi diskussiya vərdişlərini inkişaf etdirməkdir. Akvarium bir neçə variantda keçirilə bilər.

**Akvariumun keçirilməsinin 1-ci variantı**

Öyrənənlərin köməyi ilə diskussiya aparmaq qaydaları (məs: reqlamentə əməl etmək,bir-birinin sözünü kəsməmək və s)müəyyən edilir. Öyrənənlər 2 qrupa bölünür.Bir qrup dairənin daxilindəki sütunlarda əyləşərək müəllimin təklif etdiyi problemi müzakirə edir, dairədən kənardakı sütunlarda əyləşmiş digər qrup isə diskussiyanın müəyyən edilmiş qaydalara uyğun aparıldığını müşahidə edir.

Müəyyən olunmuş mövzu üzrə 1-ci qrup diskussiya aparır.15-20 dəqiqədən sonra diskussiya dayandırılır, xarici dairənin iştirakçıları

diskusiyanın gedişini qiymətləndirir və qruplar yerini dəyişərək bu və ya digər problemin müzakirsəini davam etdirirlər.

**Akvariumun keşirilməsinin 2-ci variantı**

Daxili dairənin iştirakçıları müəllimin təklif etdiyi problemi müzakirə edir və birinci variantdan fərqli olaraq iştirakçılar bu zaman yalnız problemin lehinə olan dəlilləri söyləyirlər.

Digər qrupun üzvləri xarici dairədə stullarda əyləşirlər,dəlilləri dinləyir, yazıya alır, təhlil edir, öz əks dəlillərini hazırlayırlar. 15-20 dəqiqədən sonra diskussiya dayandırılır,xarici və daxili dairədən olan öyrənənlər öz yerlərini dəyişirlər. Onlar əvvəlki iştirakçıların dəlillərini təkzib etmək üçün diskussiya aparırlar. Burada qrupların vahid fikrə gəlməsi önəmli deyil.

## Rollar üzrə oyun

Rollar üzrə oyun hər hansı bir problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmağı tələb edir. Bu üsul öyrənənlərə hadisələrin iştirakçısı olmaq və mövcud vəziyyətə başqalarının gözü ilə baxmaq imkanı verir.

Müəllim rollu oyunlardan istifadə edərkən əldə etmək istədiyi məqsədi, oyunun mövzusunu, ssenarisini və oyunda iştirak edəcək obrazları əvvəlcədən müəyyənləşdirir, ifa olunacaq rolların mətni yazılmış kartlar hazırlayır. Rollar bölüşdürüldükdən sonra digər öyrənənlərdən kimin aparıcı,kimin müşahidəçi olacağını planlaşdırır. Hazırlaşmaq üçün öyrənənlərə vaxt verir. Oyun nümayiş etdirildikdən sonra müəllim qoyulmuş problemlə bağlı müzakirə təşkil edir.

## Venn diaqramı

Əşya və ya hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün bu üsuldan istifadə olunur.

çıxarılır. Bu anlayış əsasında yeni materialın öyrənilməsinə başlanılır. Bu üsul həm də şifahi formada tətbiq edilə bilər.

**Müzakirə**

Müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi,problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Müzakirədə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, öyrənənlərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir.

Müzakirə apararkən əvvəlcədən öyrənənlərə müzakirə qaydaları xatırladılır. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və öyrənənlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı "Bəli" və ya "Xeyr" olan qapalı suallar vermək məqsədə uyğun hesab edilmir.

Müzakirədə mövzuya aid nə baş verdi? Nə üçün baş verdi? Bu başqa cür ola bilərdimi və necə? Siz bu vəziyyətdə nə edərdiniz? Sizin fikrinizcə, həmin obraz nə hiss etdi? Siz bu şəraitdə nə hiss edərdiniz? Bu düz idimi? Nə üçün? kimi suallardan istifadə olunur.

**Akvarium**

Bu üsulun məqsədi diskussiya vərdişlərini inkişaf etdirməkdir. Akvarium bir neçə variantda keçirilə bilər.

**Akvariumun keçirilməsinin 1-ci variantı**

Öyrənənlərin köməyi ilə diskussiya aparmaq qaydaları (məs: reqlamentə əməl etmək,bir-birinin sözünü kəsməmək və s)müəyyən edilir. Öyrənənlər 2 qrupa bölünür.Bir qrup dairənin daxilindəki sütunlarda əyləşərək müəllimin təklif etdiyi problemi müzakirə edir, dairədən kənardakı sütunlarda əyləşmiş digər qrup isə diskussiyanın müəyyən edilmiş qaydalara uyğun aparıldığını müşahidə edir.

Müəyyən olunmuş mövzu üzrə 1-ci qrup diskussiya aparır.15-20 dəqiqədən sonra diskussiya dayandırılır, xarici dairənin iştirakçıları

diskusiyanın gedişini qiymətləndirir və qruplar yerini dəyişərək bu və ya digər problemin müzakirsəini davam etdirirlər.

**Akvariumun keşirilməsinin 2-ci variantı**

Daxili dairənin iştirakçıları müəllimin təklif etdiyi problemi müzakirə edir və birinci variantdan fərqli olaraq iştirakçılar bu zaman yalnız problemin lehinə olan dəlilləri söyləyirlər.

Digər qrupun üzvləri xarici dairədə stullarda əyləşirlər,dəlilləri dinləyir, yazıya alır, təhlil edir, öz əks dəlillərini hazırlayırlar. 15-20 dəqiqədən sonra diskussiya dayandırılır,xarici və daxili dairədən olan öyrənənlər öz yerlərini dəyişirlər. Onlar əvvəlki iştirakçıların dəlillərini təkzib etmək üçün diskussiya aparırlar. Burada qrupların vahid fikrə gəlməsi önəmli deyil.

**Rollar üzrə oyun**

Rollar üzrə oyun hər hansı bir problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmağı tələb edir. Bu üsul öyrənənlərə hadisələrin iştirakçısı olmaq və mövcud vəziyyətə başqalarının gözü ilə baxmaq imkanı verir.

Müəllim rollu oyunlardan istifadə edərkən əldə etmək istədiyi məqsədi, oyunun mövzusunu, ssenarisini və oyunda iştirak edəcək obrazları əvvəlcədən müəyyənləşdirir, ifa olunacaq rolların mətni yazılmış kartlar hazırlayır. Rollar bölüşdürüldükdən sonra digər öyrənənlərdən kimin aparıcı,kimin müşahidəçi olacağını planlaşdırır. Hazırlaşmaq üçün öyrənənlərə vaxt verir. Oyun nümayiş etdirildikdən sonra müəllim qoyulmuş problemlə bağlı müzakirə təşkil edir.

**Venn diaqramı**

Əşya və ya hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün bu üsuldan istifadə olunur.




Venn diaqramından istifadə prosesi aşağıdakı mərhələlər üzrə aparılır.

- Müqayisə olunacaq əşya və hadisələr müəyyənləşdirilir.
- Kəsişən dairələr çəkilir(ortada yazmaq üçün yer saxlanılır).
- 1-ci və 3-cü dairədə müqayisə olunacaq obyektlər qeyd olunur.
- Öyrənənlər təlimatlandırırlır(təlimatda nəyin müqayisə olunacağı və dairələrdə oxşar və fərqli cəhətlərin necə qeyd olunacağı barədə danışılır).
- Müqayisə olunan obyektlər təsvir edilir (fərqli cəhətlər sağ və sol tərəfdə , oxşar cəhətlər kəsişmə dairəsində qeyd olunur).
- Müqayisə nəticəsində fikirlər ümumiləşdirilir.

**Layihənin hazırlanması**

Layihələrin hazırlanması müxtəlif mövzuların müstəqil şəkildə tədqiq edilməsidir. Öyrənənlər öz layihələrini təqdim etməzdən əvvəl uzun müddət onun üzərində işləyirlər. Layihələr öyrənənlərin tədqiqat vərdişlərinin, biliklərə müstəqil yiyələnmə bacarıqlarının formalaşmasında mühüm rol oynayır, onlara müstəqil şəkildə öz fəaliyyət proqramlarını qurmaqda, habelə öz vaxtını və işini qrafik üzrə planlaşdırmaqda kömək edir. Bu üsul həmçinin öyrənənlərin bir–biri ilə, eləcə də məktəbdən kənarda müxtəlif adamlarla qarşılıqlı əlaqəsi üçün şərait yaradır, hadisələrin hər hansı bir aspektini daha dərindən anlamağa imkan verir, əlavə ədəbiyyatdan istifadə etməyə istiqamətləndirir.

Layihələr hazırlayarkən müəllim mövzu və ya problemi müəyyən edir və sinfə bunlardan birini seçmək imkan verir. Problem həmçinin sinif tərəfindən "əqli hücum" üsulu ilə seçilə bilər.

Problem konkret olmalıdır. Müəllim və öyrənənlər birlikdə layihə üzərində işin başlama və başa çatma müddətini,istifadə olunacaq əyani vasitələri (ədəbiyyatlar, mənbələrə, təsviri vasitələr və s) bunları əldə etmək yollarını, iş formalarını (fərdi yoxsa, qrup şəklində) müəyyən edirlər.

İş prosesində müəllim suallara cavab verə və ya yol göstərə bilər. İşin icrasına isə öyrənənlər özü cavabdehdir.

Tədqiqatın nəticəsi: hesabat, xəritə, illüstrasiya, fotoşəkillər cədvəllər, qrafiklər, formasında ifadə oluna bilər.

## Qərarlar ağacı

Bu üsul qərarların qəbul edilməsi zamanı alternativ yolları araşdırmaq və təhlil etmək məqsədi daşıyır.

Bu təlim prosesində və gündəlik həyatımızda bəzən elə çətin vəziyyətlərlə, problemlərlə rastlaşırıq ki, onların bir yox, bir neçə həlli yolları olur. Ancaq bu problemləri həll edərkən biz heç də həmişə onların mahiyyətini dərindən dərk edə bilmirik, ona görə də bəzən səhv qərarlar qəbul edirik. "Qərarlar ağacı" üsulu necə tətbiq olunur?

1. Əvvəlcə müəllim təhlil ediləcək problemi və onun həlli yollarının bir neçə variantını müəyyənləşdirir. Təklif olunan variantların hamısı eyni dərəcədə real və bərabər əhəmiyyətli olmalıdır ki, onların arasında "lider" variantı olmasın.

2. Təhlil olunacaq problem iri kağızda, aşağıdakı formada təqdim olunur.

| problem | | |
|---|---|---|
| 1-ci variant | 2-ci variant | 3-cü variant |
| + | + | + |
| - | - | - |
| Qərar: | | |

3. Müəllim şagirdləri 4-6 nəfərlik qruplara bölür.

4. Müəllim qruplara tapşırığı izah edir. Hər qrupa cədvəl çəkilmiş bir kağız və marker verir. Tapşırığın yerinə yetirilməsi üçün vaxt təyin edilir (10-20 dəqiqə.)

5. Qruplar iş zamanı problemin verilmiş həlli yollarını təhlil edir,hər variantın müsbət və mənfi cəhətlərini müəyyənləşdirir və müvafiq xanaları doldururlar. Yalnız bütün variantlar təhlil edildikdən sonra mənfi və müsbət cəhətlər nəzərə alınaraq qərar qəbul olunur-variantlardan yalnız biri seçilir. Qərar cədvəlin aşağı hissəsində yazılır.

6. Qrup qəbul olunmuş qərarı yazdıqdan sonra müəllim cədvəlin qərar hissəsinin üstünü bağlayır (ancaq elə bağlamaq lazımdır ki, asanlıqla açmaq mümkün olsun).

7. Təqdimat zamanı qrupların nümayəndələri yazıları oxuyur, amma qərarı bildirmir. Müəllim başqa qruplardan xahiş edir ki, qrupun qeyd etdiyi müsbət və mənfi cəhətləri nəzərə alaraq onun hansı variantı seçdiyini tapsınlar. Şagirdlər öz fikirlərini söylədikdən sonra cədvəldə "Qərar xanası açılır."

8. Bütün qruplar öz işlərini təqdim etdikdən sonra,müəllim alınmış nəticələrin müqayisəsi və qəbul olunmuş qərarların əsaslı olması istiqamətində kiçik müzakirə aparır. Şagirdlərin diqqətini bu tapşırığın düşünülmüş qərarın qəbul olunmasında bizə kömək etdiyinə yönəltmək çox vacibdir.

## Ziqzaq

Bu üsul mətnin məzmununun qısa müddət ərzində öyrənənlər tərəfindən mənimsənilməsinə imkan yaradır.

1-dən 4-ə qədər saymaqla sinfi dörd nəfərdən ibarət müxtəlif qruplara bölür. Qrupdakı hər bir şagirdin öz nömrəsi olur. Hər bir qrup üzvünə məzmunun bir hissəsi (məsələn, hekayənin bir hissəsi) göstərilən kartlar verilir. Hekayə qrupların sayına uyğun gələn hissələrə bölünür və hər qrup hekayənin bir hissəsini alır.

Müəllim qısaca olaraq hekayənin adını və məzmununu müzakirə edir və bildirir ki, şagirdlərin vəzifəsi onu başa düşməkdən ibarətdir. Dərsin sonunda hər bir iştirakçı hekayəni başa düşməlidir. Dərs zamanı qruplar verilmiş hissəni necə başa düşdüklərini müəyyən etməlidirlər.

Bütün 1 nömrəli şagirdlər birinci hissəni, 2 nömrəli şagirdlər ikinci hissəni alacaqlar və s. Müəllim izah edir ki, 1, 2, 3 və 4 qrupdakı şagirdlər (yəni qrupdakı bütün 1 nömrəli şagirdlər, qrupdakı bütün 2 nömrəli şagirdlər və s.) ekspert adlanır. Onların vəzifəsi verilmiş məzmunun öyrənilməsindən ibarətdir. Məzmunu daha yaxşı başa düşmək üçün onlar eyni nömrəli şagirdlərlə tapşırığı oxumalı və müzakirə etməlidirlər.Eyni nömrəli şagirdlər tədris məzmununun tərzi barəsində razılığa gəlməlidirlər. Daha sonra onlar öz əvvəlki qruplarına qayıdırlar və qrup üzvlərinə yeni məzmunu öyrətməlidirlər. Ekspertlər tədris strategiyaları və materialları barəsində razılığa gəlirlər. Öz məlumatlarını oxumaq, müzakirə etmək və tədris strategiyaları üzərində birgə işləmək üçün ekspertlərə vaxt tələb olunur.

Ekspertlər qrupu müzakirələri bitirdikdən sonra hər bir şagird öz ilkin qrupuna qayıdır və onlara həmin məzmunu öyrədir.

Müəllim şagirdlərə xatırladır ki, hər bir ekspert bütün hekayənin məzmununu başa düşməlidir. Şagirdlər hekayənin istənilən hissəsi ilə əlaqədar yarana biləcək sualları yazır və sonra həmin sualla bu hissəyə görə cavabdeh olan ekspertə müraciət edir. Əgər hələ də sualı olan şagird varsa, onlar bu sualla bütün ekspertlər qrupuna (məsələn, bütün

1 nömrəli ekspertlərə) müraciət edə bilər. Əgər, hələ də suallar qalıbsa, onları aydınlaşdırmaq üçün tədqiqat aparmaq lazımdır.

Sonda müəllim şagirdlərə mövzunu və hekayənin hissələrini xatırladır və onlardan xahiş edir ki, şagirdlər ekspertlərin təqdimatını necə başa düşüblərsə, məqalənin hər bir hissəsini şifahi şəkildə artan sıra ilə danışsınlar. Müəllim bununla şagirdin məntiqi biliyini yoxlayır.



**Karusel**

Dərsdən əvvəl iri ağ kagızlarda (vatman)mövzuya aid suallar yazılır. Müəllim qruplara müxtəlif sual yazılmış bir kağız verir. Qrup üzvləri sualı oxuyur və bir cavab yazır. Kağızlar saat əqrəbi istiqamətində müəlliminköməkliyi ilə qruplara ötürülür. Karusel kimi, kağızlar bütün digər qruplardan keçərək axırda öz qrupuna qayıdır.Müəllim bu kağızları yazı lövhəsinə yapışdırır və bütün sinif cavabları müzakirə edir.

# Fəal təlimin xüsusiyyətləri

- İştirakçıların bütün dərs zamanı fəal olması.
- Dərsin əvvəlində problemin qoyulması və dərsin gedişinin problemin həllinə yönəldilməsi.
- Yeni biliklərin müstəqil kəşf edilməsi təlimin tədqiqat formasında keçirilməsi.
- Təlimin interaktiv şəklində keçirilməsi: şagirdlərin birgə fəaliyyəti, müəllim və şagirdlərin qarşılıqlı əməkdaşlığı.
- Qrup işindən geniş istifadə olunması.
- Biliklərin yaradıcı tətbiqi.
- Müxtəlif tipli tapşırıqlardan, bilik mənbələrindən və iş vərəqlərindən istifadə edilməsi və s.

**Fəal təlimin üstünlükləri**

- Müstəqil düşünmə və sərbəst nəticə çıxartmaq imkanı.
- Şagirdlərin fəallığı.
- Az vaxt ərzində daha çox məlumat mənimsəmə imkanı.
- Tədqiqat vərdişlərinin formalaşması və inkişafı.
- Əməkdaşlığın və qarşılıqlı hörmətin formalaşması.

# Fəal təlimin əsas mexanizmləri

**Mexanizm № 1** Problemli şəraitin yaradılması:

Şagirdin qarşısına problem qoyulur və onun problemi həll etməyə yönəldilməsi nəticəsində idrak fəallığı yaranır.

**Mexanizm № 2** Şagird-tədqiqatçı, müəllim fasilitator.

Fəal təlim zamanı şagird subyekt mövqeyini tutmalı, bu prosesin bərabər iştirakçısı olmalıdır. Şagird tədqiqatçı, müəllim isə bələdçi rolunu həyata keçirməlidir. Şagirdlər bilikləri müstəqil şəkildə tədqiqat zamanı əldə etməlidir.

**Mexanizm № 3** Dialoqun və əməkdaşlığın zəminliyi.

Fəal təlim dialoji şəkildə əməkdaşlıq şəklində keçirilir

**Mexanizm № 4** Psixoloji dəstək. Hörmət və etibar. Şagirdlərin idrak fəallıqlarını saxlamaq vasitəsi- onların psixoloji dəstəklənməsidir: müəllimin xeyirxah münasibəti, şagirdlərə hörmət və etibar, onların bacarığına inam

Fəal təlimin 4 əsas mexanizmi idrak fəallığının əmələ gəlməsinə və dərs zamanı saxlanmasına səbəb olur. Dərketmə və biliklərin mənimsənilməsi prosesində təfəkkürün fəallaşdırılması nəticəsində şagirdlərdə sərbəstlik, biliklərin daha da müstəqil qavranılmasına imkan yaranır və təlim daha səmərəli olur. Fəal təlimin mexanizmləri standartların həyata keçirilməsini təmin edir.



**Fəal təlimin ənənəvi təlimin müqayisəsi**

| Ənənəvi təlim | Fəal təlim |
|---|---|
| Hafizəyə əsaslanır | Təfəkkürə əsaslanır |
| Monoloji təlimdir | Dialoji təlimdir |
| Tədrisdə avtoritar üslub əsasdır | Tədrisdə demokratik üslub əsasdır |
| Müəllim - əsas bilik mənbəyidir | Bilik mənbələri müxtəlifdir |
| Şagirdlər passivdir | Şagirdlər fəaldır |
| Şagirdlər yeni bilikləri müəllimin məlumatları və izahlarını qavrama və yadda saxlama əsasında mənimsəyirlər | Şagirdlər yeni bilikləri tədqiqat zamanı dərk edirlər |
| Hazır halda əldə edilən biliklərin möhkəmləndirilməsi yolu ilə mənimsəmənilməsi | Məsələnin həlli prosesində biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi |

**Müəllimin bələdçilik mövqeyinin həyata keçirilməsi qaydaları.**

Fəal təlim zamanı müəllimin bələdçi rolunu müəyyən edən əsas funksiyası – fasilitasiya adlanır.

### *Fasilitasiya qaydaları.*

- Fikrin təhrik edilməsi qaydaları.
- Psixoloji dəstəkləmənin qaydaları.
- Məlumatla təmin etmə qaydaları.
- Təşkilatı dəstəkləmənin qaydaları.

### *Fasilitasiya aşağıdakılara əsaslanır.*

- Müəllim və şagirdlərin birgə əməkdaşlığı.
- Onların qarşılıqlı hörmət və etibarı.
- Şagirdlərin olduqları kimi qəbul edilməsi və müəllim tərəfindən onların daim dəstəklənməsi.
- Şagirdlərin qabiliyyətlərinə inam.
- Təfəkkürün stimullaşdırılması.
- Şagirdlərdə öyrənmə stimulunun və motivasiyasının yaradılması.
- Onların sinif mühitinə, müəllimin xüsusi həssas münasibətinə uyğunlaşması.

| | |
|---|---|
| **Proses** | *Fasilitasiya qrupda diskussiyanın təşkili, fəallaşdırılması prosesidir.* |
| **Əsas xüsusiyyət** | *Fasilitasiya prosesinin xüsusiyyəti ondan ibarətdir ki, dərsdə məlumatı müəllim yox, qrup çatdırır.* |
| **Funksiya** | *Fasilitatorun mövqeyi, onun əsas funksiyası – fikrin təhrik edilməsi və onu lazım olan istiqamətə yönəldilməsidir.* |
| **Məqsəd** | *Fasilitasiya yanaşması idraki və yaradıcı tələbatların tam ödənilməsinə, yəni şagirdlərin öz qabiliyyətlərini gerçəkləşdirilməsinə yönəlmişdir.* |
| **Rol** | *Müəllim - fasilitator uşaq tərəfindən biliklərin əldə edilməsi prosesində bələdçi rolunu yerinə yetirir.* |

## TEST 1

**1. "Kurikulum" sözünün lüğəti mənası nə deməkdir:**
A) Təhsil, fənn
B) Təhsil pilləsi, təhsil proqramları
C) Konsepsiya, əmr
D) Yol, istiqamət

**2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası neçənci ildə təsdiq edilmişdir?**
A) 19 iyun 2010-cu il
B) 24 oktyabr 2013-cü il
C) 5 iyun 2006-cı il
D) 19 iyun 2009-cu il.

**3. Strategiya ilə oxuyan oxucu məqsədləri müəyyənləşdirərkən əsasən hansı üsuldan istifadə edir?**
A) Ziqzaq
B) Karusel
C) BİBÖ
D) Akvarium

**4. Hansı əsas standartın funksiyasına aid deyil?**
A) 2 rəqəmlə ifadə olunur
B) Əsasən dəyişməzdir
C) Daim siniflər üzrə dəyişir
D) Təlim üzrə müəyyən olunan təlim nəticələrinin məzmun xətləri üzrə ifadə edir.

**5. "Problemin həll edilməsi yolu ilə əldə olunan yeni biliklərdir" fikri biliyin hansı növünə aiddir?**
A) Deklarotiv
B) Prosedural
C) Kontekstual
D) İdraki

**6. Hansı təlimin təşkilinə verilən əsas tələblərə aid deyil?**
A) Pedaqoji prosesin tamlığı
B) Şagirdyönümlülük
C) İnkişafyönümlülük
D) Tələbyönümlülük

**7. Prespektiv planlaşdırmada aşağıdakılardan hansı göstərilmir?**
A) Mövzu
B) Məqsəd
C) Tarix
D) İnteqrasiya

**8. Hansı fəal dərsin mərhələlərinə aid deyil?**
A) Məlumatın mübadiləsi
B) Nəticə və ümumiləçdirmə
C) Yeni dərsin izahı
D) Qiymətləndirmə və refleksiya

**9. Holistik sözünün latınca mənası nədir?**
A) Yarımçıq, xüsusi
B) Ləng, asta
C) Ümumi, bütöv, tam
D) Xüsusi, bütöv

**10. Analitik qiymətləndirmə necə qiymətləndirmədir?**
A) Sürətli
B) Uzunmüddətli
C) Gözəyarı
D) Şifahi

**11. Əgər şagird I yarımillikdə "5", II yarımillikdə "2" qiymət alarsa ona illik qiymət neçə yazılmalıdır?**

A) 3
B) 2
C) 5
D) 4

**12. Hansılar iş üsuludur?**

A) Qruplarla iş, fərdi iş, BİBÖ
B) Beyin həmləsi, Venn diaqramı, rollu oyun
C) Cütlərlə iş, akvarium, ziq-zaq
D) Klaster, kollektiv iş, qərarlar ağacı

**13. Fəal təlimin xüsusiyyətlərinə aid olmayanları seçin.**

A) Təfəkkürə əsaslanır, dialoji təlim, şagirdlər fəaldır
B) Şagirdlər yeni bilikləri tədqiqat zamanı dərk edir, dialoji təlim
C) Hafizəyə əsaslanır, monoloji təlim, müəllim əsas bilik mənbəyi kimi
D) Dialoji təlim, şagirdlər passivdir

**14. Hansı banddə verilənlər fasilitasiya qaydalarına aiddir.**

A) Dərsin təşkili qaydaları
B) Psixoloji dəstəkləmənin qaydaları
C) Monoloji təlimin qaydaları
D) Hafizəyə əsaslanan biliyin tədrisi qaydaları



**15. Fənn kurikulumunun səciyyəvi xüsusiyyətləri hansılardır?**

A) Nəticəyönümlülük
B) Fənyönümlülük
C) Müəllimyönümlülük
D) Təklifyönümlülük

**16. Hansı xüsusiyyət fərdi iş formasının müsbət cəhətinə aiddir?**

A) Şagirdlərin daha yaxından əməkdaşlıq etməsini təmin etmək
B) Bir şagirdi mükəmməl öyrətmək
C) Vaxt itkisinə yol verməmək
D) Şagirdlərin fəaliyyətini öndə saxlamaq

**17. Hansı banddə verilənlər rubrikin növləridir?**

A) Müşahidə, layihə
B) Koqnitiv, affektiv
C) Psixomotor, idraki
D) Holistik, analitik

**18. Aşağıdakılardan hansı idrak taksonomiyasının səviyyələrinə aid deyil.**

A) Analiz
B) Dəyərləndirmə
C) Müqayisə etmə
D) Anlama

**19. Gündəlik planlaşmada qeyd olunmayan hansıdır?**

A) Dərsin mərhələləri
B) Tədris vahidi
C) İş üsulları
D) Resurslar

**20. Təhsil Nazirliyi tərəfindən keçirilən qiymətləndirmə istiqaməti hansıdır?**
A) Beynəlxalq qiymətləndirmə
B) Milli qiymətləndirmə
C) Məktəbdaxili qiymətləndirmə
D) Dioqnostik qiymətləndirmə

**21. Fəal dərsin neçə mərhələsi var?**
A) 5
B) 4
C) 7
D) 8

**22. Qrupda diskusiyanın təşkili, fəallaşma, səmərəli yönəltmə nə adlanır?**
A) Fəal prosesin məqsədi
B) Fasilitasiya prosesi
C) Dərsin motivasiya mərhələsi
D) Təlim üsulu

**23. Verilənlərdən hansı açıq sualdır?**
A) Nə
B) Nə vaxt
C) Niyə
D) Nə zaman

**24. Ayrı-ayrı fənlər üzrə bilik, bacarıq, vərdiş və mövzuların ardıcıllığını, həmin mövzulara, bölmələrə verilən saatların miqdarını müəyyən edən dövlət sənədi hansıdır?**
A) Fənn kurikulumu
B) Fənn proqramı
C) Taksonomiyalar
D) Milli kurikulum

**25. Uyğunluğu müəyyən edin.**
1. Şagirdin mövqeyi
2. Müəllim mövqeyi
3. İnteraktiv iş formaları
a) "kəşf edən", "tədqiqatçı"
b) "bələdçi", "aparıcı"
c) cütlüklərlə iş
A) 1a, 2b, 3c
B) 1b, 2a, 3c
C) 1b, 2c, 3a
D) 1c, 2a, 3b

TEST 2

**1. Verilənlərdən hansı məzmun standartına nə aiddir.**
A) Bilik və fəaliyyət
B) Sturuktur və məzmun
C) Proses və fəaliyyət
D) Strategiya və standart

**2.Fəaliyyətin növləri hansılardır?**
A) Deklarativ, idrak, psixomotor
B) Emosional-affektiv, prosedual idrak
C) Deklarativ, psixomotor, kontekstual
D) İdrak, emosional-affektiv, psixomotor

**3. Biliyin kateqoriyaları hansılardır?**
A) Ünsiyyət, deklarativ, idrak
B) Prosedural, kontekstual, idrak
C) Deklarativ, prosedural, kontekstual
D) İdrak, emosianal-affektiv, psixomotor

**4. Hansı sətirdə fənn kurikulumun səciyyəvi cəhətləri sadalanıb?**
1. Bəzi fənnlər üzrə qiymət normaları müəyyən edilib
2. Nəticəyönümlüdür
3. Şəxsiyyətyönümlüdür
4. Fənyönümlüdür
5. İnteqrativlik əsas prinsip kimi qəbul olunub
A) 2,4,6
B) 1,3,5
C) 2,3,5
D) 3,5,6

**5. Təlim strategiyalarına *aid olmayanı seçin.***
A) Təlim fəaliyyətinin planlaşdırılması
B) İş formaları
C) Standart
D) Təlimin təşkilinə verilən əsas tələblər
E) Üsullar

**6. Düzgün motivasiya necə olmalıdır?**
1. Düşündürücü (2 və daha çox fərziyyələri yaradan)
2. Asanlıqla cavabı tapılan, qısa (3-5 dəq.)
3.Məqsədyönlü
4.Həyatla əlaqəli
5.Konkret
6.Ziddiyəti həll etmək tələbatı
A) 1,2,4
B) 3,5,6
C) 1,5,6
D) 1,4,7

**7. Qiymətləndirmə standartları neçə səviyyədə müəyyən olunur?**
A) 3
B) 6
C) 5
D) 4

**8. Diaqnostik qiymətləndirmə hansı məqsədlə aparılır?**
A) Fənn üzrə təlimin hər hansı bir mərhələsində şagirdlərin ilkin bilik və bacarıq səviyyəsini qiymətləndirmək məqsədilə
B) Təlim prosesinin hər hansı bir mərhələsi üçün müəyyən olunmuş nəticələr əsasında şagirdlərin bilik və bacarıqlarının formalaşma səviyyəsini qiymətləndirmək məqsədilə

C) Təhsilin hər hansı mərhələsində (tədris vahidinin, yarımilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nailiyyətləri qiymətləndirmək məqsədilə
D) Şagirdin gündəlik bilik səviyyəsini izləmək məqsədilə

**9. Kurikulum islahatını zəruri edən səbəblər hansılardır?**
1. Cəmiyyətdə yeni ictimai münasibətlərin yaranması
2. Təlim prosesi ilə əlaqəli tədqiqatlar
3. Planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid
4. Dünya təhsil sisteminə inteqrasiya
5. Şagirdlərin zəifliyi
6. İnformasiya əsrinin tələbləri
7.Təhsilin məqsəd və vəzifələrinə yeni baxış və yanaşmaların formalaşması
A) 1,2,4,6
B) 1,5,6,7
C) 3,4,6,7
D) 2,5,6,7

**10."Ana dili: 1.2.4. Nitqində jest və mimikalardan istifadə edir. "Aşağıdakılardan hansı təqdim edilmiş alt standartı bilik (1) və fəalliyyət (2) kateqoriyaları əks etdirir?**
A) 1.Prosedural 2.Emosional
B) 1.Deklarativ 2.Psixomotor və emosional
C) 1.Prosedural 2.Psixomotor və emosional
D) 1.Dektarativ 2.Psixomotor

**11. Fəal (1) və ənənəvi (2) dərslərin quruluşunda fərq düzgün göstərilməyib.**
A) 1-də motivasiya, refleksiya mərhələləri var, 2-də isə yoxdur
B) 1-də biliklər dərsin ilkin mərhələlərində, 2-də isə dərsin sonuna yaxın əldə olunur
C) 1-də təlim prosesin mərkəzi – tədqiqatdır, 2-də isə -mühazirədir.
D) 1-tətbiqetmə produktiv xaeakter daşıyır, 2-də isə-reproduktiv

**12. Hansı sətirlərdə fəal təlim mexanizmlərin sadalanmasında səhvə yol verilib?**
A) Şagird-tətqiqatçı, müəllim-fasilitator, bələdçi
B) Problemli şəraitin yaradılması
C) Təlim məqsədlərinin düzgün müəyyənləşdirilməsi
D) Dialoqun və əməkdaşlığın zəruriliyi
E) Psixoloji dəstək, hörmət və etibar.

**13. Hansı sətirdə fəal təlimə aid olan xüsusiyyətlər sadalanıb?**
A) Şagirdlər yeni bilikləri tədqiqat zamanı dərk edirlər, monoloji təlim, tədrisdə demokratik üslüb
B) Bilik mənbələri müxtəlifdir, şagirdlər yeni bilikləri müəllimin məlumatları və izahatlarını qavrama və yadda saxlama əsasında mənimsəyirlər.
C) Məsələnin həlli prosesində biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, tədrisdə avtoritar üslub,dialoji təlim

D) Təfəkkürə əsaslanır; bilik mənbələri müxtəlifdir; problem-dioloji xarakter daşıyır.

**14. Tədris və təlim işi şagirdlərin maraq və təlabatlarının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldir. Qeyd olunan fikir təlimin təşkilinə verilən tələblərindən hansının şərhidir?**
A) Pedaqoji prosesin tamlığı
B) Təlimdə dəstəkləyici mühitin yaradılması
C) Təlimdə bərabər imkanların yaradılması
D) Şagirdyönümlülük

**15. Fasilitasiya (bələdçilik) qaydalarını seçin?**
1. İştirakçıların şüurunda dərsin dəqiq "səklini" formalaşdırın
2. Dərsə şagirdlərin məntiqi, tənqidi, yaradıcı təfəkkürü və elmi-tədqiqat vərdişlərini inkişaf etdirən tapşırıqları daxil edin.
3. Hər hansı bir fikrin qiymətləndirilməsinə imkan verin
4. İştirakçıların fikirləri ilə səmimi maraqlanın
5. Açıq suallardansa, qapalı suallardan daha çox istifadı edin.
6. Löhvədə və ya kağız üzərində qrup işi zamanı müəyyən edilən əsas halları qeyd etmək məqsədəuyğundur.

A) 2,3,4
B) 1,3,5
C) 1,4,6
D) 3,4,6

Kurikulum 2015

**16. Formativ qiymətləndirmədə istifadə olunan metod və vasitələr hansılardır?**
A) Müşahidə, şagirdlərin şifahi cavabları, şagirdlərin yazı işlərinin təhlili, test tapşırıqlarının nəticələri
B) Müsahibə, sohbət, müşahidə,tapşırıqlar, valideynlərlə və digər fənn müəllimlərilə əməkdaşlıq
C) Şifahi təqdimat, testlər, nailiyyətlərin nümayişi
D) Müşahidə,valideynlərlə və digər fənn müəllimlərilə əməkdaşlıq,nailiyyətlərin nümayişi

**17. Aşağıdakılardan biri alt standartın funksiyasına aiddir?**
A) Təlim strategiyalarının düzgün seçilməsində mühüm rol oynayır
B) Mövzuların seçilməsinə xidmət edir
C) Summativ qiymətləndirmənin aparılmasını təmin edir
D) Diaqnostik qiymətləndirmənin aparılmasına xidmət edir

**18. Verilən vəziyyətdən çıxış yolu tapmaq lazımdır. Tapşırıq təfəkkürün hansı növünə əsaslanır?**
A) Tənqidi
B) Qlobal təfəkkür
C) Məntiqi
D) Yaradıcı

**19.Nəyə görə motivasiya düşündürücü və məqsədə uyğun olmalıdır?**
1. Tədqiqatı dərsin nəticələrinə istiqamətləndirir

2. Şagirdlərdə idrak fəallığı oyadır, 45 dəqiqə ərzində dərsin bütün mərhələləri arasında vaxtı paylaşdırıb, onları tam şəkildə həyata keçirməyə imkan yaradır
3. Dərsi maraqlı edir, dərs vaxtında qutarir
4. Şagirdlərdə fikrin təhrik etməsini stimullaşdırır
A) 1,2
B) 2,3
C) 1,4
D) 3,4

**20. Refleksiya mərhələsi nəyə xidmət edir?**
A) Şagirdlərin tədqiqatının nəticəsini müzakirə etməyə
B) Şagirdlərin tədqiqat fəaliyyətinin əsas mərhələlərini dərk etməyə
C) Müəllimin söylədiklərini yadda saxlamağa
D) əldə olunmuş biliklərin müzakirəsinə

**21. İnformatika: 2.1.1. Obyektin informasiya modelini izah edir. "Aşağıdakılardan hansı təqdim edilmiş alt standartın bilik (1) və fəaliyyət (2) kateqoriyalarını əks etdirir.**
A) 1. Prosedural 2. İdraki
B) 1. Deklarativ 2. İdraki və emosional
C) 1. Prosedural 2. Psixomotor
D) 1. Dektlarativ 2. İdraki

**22. Fasilitasiya nəyə əsaslanır? Biri səhvdir.**
A) Müəllim və şagird əməkdaşlığına
B) Şagirdlərin qabiliyyətinə inam
C) Təfəkkürün stimullaşdırılmasına
D) Təlimatsız tapşırıqların verilməsi

**23. Gündəlik planlaşdırmada müəllimin buraxdığı səhvlər hansılardır? (3-nü seçin)**
1. Keçiləcək mövzunun müəyyənləşdirmək
2. Məzmun standartının müəyyənləşdirilməsi
3. İnteqrasiya imkanlarının müəyyənləşdirilməsi
4. Qiymətləndirmə vasitələrinin müəyyənləşdirilməsi
5. Təqdim edilmiş planlaşdırmadan kənara çıxmamaq
6. Dərslikdə verilmiş materialı mənimsətmək
A) 1,2,3
B) 3,4,5
C) 1,5,6
D) 1,3,5

**24. Diaqnostik qiymətləndirmənin əsas məqsədi nədən ibarətdir?**
A) Şagirdlərin təlim sahəsində irəliləyişlərinin izlənməsini təmin etmək
B) Şagirdlərin özünü qiymətləndirmə bacarığını inkişaf etdirmək
C) Təlim prosesinin planlaşdırmasında şagirdlərin fərdi inkişaf xüsusiyyətlərini nəzərə almaq
D) Tədris prosesinin düzgün istiqamətləndirliməsini və səmərəliyini təmin etmək

**25. Summativ qiymətləndirmənin məqsədlərini müəyyənləşdirin.**

1. Müəllimin tədris fəaliyyətini izləmək
2. Sinfin ilkin səviyyəsini müəyyənləşdirmək
3. Məktəbdə təlimin təşkili işinin səviyyəsini müəyyənləşdirmək
4. İnkişafın izlənməsinə xidmət edir
5. Təlim və tədris monitorinqini həyata keçirmək

A) 1,2,3
B) 2,3,5
C) 2,4,5
D) 1,3,5

## TEST 3

**1.Ənənəvi (!) və müasir qiymətləndirmənin müqayisəsində biri düzgün verilmişdir:**

A)1-təhsilin keyfiyyətinə yğnəlmişdir, 2-şagirdin subyektiv qiymətləndirilməsinə yönəlmişdir

B) 1- tədris prosesinin bütün mərhələlərində tətbiq edilir, 2- cari qiymətləndirmə formal xarakter daşıyır

C) 1-tədris prosesinin yalnız müəyyən bir hissəsində tədbiq edilir, 2- şagirdin nailiyyətinin inkişafı sistemli şəkildə izlənilir

D) 1-şagirdin bilik səviyyəsi qiymətləndirilir, 2-şagird müəllimin təyin etdiyi meyarlarla qiymətləndirilir

**2. Təlim strategiyalarına aid olanları seçin.**

1. Təlim fəaliyyətinin planlaşdırılması
2. Qiymətləndirmə növləri və üsulları
3. İş formaları
4. Təlimin nəticələri
5. Standart
6. Təlimin təşkilinə verilən əsas tələblər
7. Üsullar

A) 1,3,4,6 B) 3,4,6,7
C) 1,3,6,7 D) 2,3,5,7

**3. Fənn kurikulumunda nə əks olunub?**

1. Qiymətləndirmə növləri və üsulları
2. Mövzular
3. Məzmun(fənnin məqsədləri, məzmun xətti, standartlar,alt standarlar)
4. Həftəlik dərs saatlarının miqdarı
5. Ümumi təhsil pillələrinin təlim nəticələri
6. Pedaqoji strategiyalar

A) 1,3,6 B) 1,2,4
C) 2,3,5 D) 3,4,6

**4. Kompetensiya nədir?**

A) Biliklər, bacarıqlar, dəyərlər, keyfiyyətlər, vərdişlər

B) Vasitələr, bacarıqlar, dəyərlər, keyfiyyətlər, vərdişlər

C) Biliklər, bacarıqlar, dəyərlər, prinsiplər, vərdişlər

D) Təhsil, bacarıqlar, dəyəzlər, keyfiyyətlər, məzmun

**5. Nəticəyönümlü deyəndə nə nəzərdə tutulur?**

A) Nəticənin müəllim tərəfindən əldə edilməsidir

B) Nəticəni şagirdin özünün müəyyən etdirilməsidir

C) Nəticənin validey tərəfindən əldə edilməsidir

D) Əvvəlcədən müəyyən edilmiş şagird nailliyyətinin nəticələr formasında əks etdirilməsidir.

**6. Aşağıdakılardan hansı kurikulumun əsas xüsusiyyətlərinə aid deyildir?**

A) İnteraqtivlik

B) Nəticəyönümlüdür

C) Şagirdyönümlüdür

D) Təklifyönümlüdür

**7. Biri formativ qiymətləndirmənin xüsusiyyətidir.**
A) Qiymətləndirmə standartlarına əsaslanır. Keyfiyyət göstəriciləri nəzərə alinir.
B) Alt-standart əsasında qurulur. Daha obyektiv, dəqiq, adekvat, sistemli
C) Formal, dəqiq olmayan, müəllimin subyektiv rəyinə əsaslanan
D) Yalnız testlərlə aparılır

**8. Məktəbdaxili qiymətləndirmənin neçə növü var?**
A) 2 B) 4
C) 5 D) 3

**9. Diaqnostik qiymətləndirmə nə zaman aparılır?**
A) Dərs ilinin, tədris vahidlərinin əvvəlində, yeri gəldikdə bəhs və bölmələrin əvvəlində zəruri vəziyyət yarandıqda
B) Təhsilin hər hansə bir mərhələsində şagirdlərin əldə etdikləri bilikləri qiymətləndirmək məqsədi ilə
C) Dərsin hər hansı bir mərhələsində şagirdlərin əldə etdikləri nailiyyətləri qiymətləndirmək məqsədi ilə
D) Dərs ilinin sonunda

**10. Rubriklərin növlərini seçin.**
1. Düşündürücü rubrik
2. Holistik rubrik
3. Analitik rubrik
4. Ekspres rubrik
A) 1,2 B) 1,3
C) 2,3 D) 3,4



**11. Rubriklərin əsas elementlərini seçin.**
1. Rubrikin adı
2. Aspektlər və meyarlar
3. Müəllimin adı
4. Qiymətləndirmə şkalası
5. Məktəbin adı
6. Səviyyə üzrə göstəricilər
7. Səviyyə deskriptoru
A) 1,3,5,6 B) 1,2,4,6,7
C) 2,3,4,5,7 D)1,3,4,5,6,7

**12. Biri təlimin təşkilinə verilən tələblər sırasında verilə bilməz.**
A) Pedaqoji prosesin tamlığı
B) Fəaliyyətin stimullaşdırılması
C) Dəstəkləyici mühitin yaradılması
D) Biliklərin reproduksiyası

**13. Tədris vahidlərinin ardıcıllığını müəyyən edin.**
A) Məzmun ardıcıllığı məntiqi ardıcıllıq
B) Zaman ardıcıllığı, fikir ardıcıllığı, xronoloji ardıcıllıq
C) Sadədən mürəkkəbə ardıcıllığı, fikir ardıcıllığı, cari ardıcıllıq
D) Anlayışların ardıcıllığı, resursların ardıcıllığı, məntiqi ardıcıllıq

**14. Müasir təlimin prinsipləri hansılardır?**
1.Şəxsiyyətə yönəlmiş təlim
2.Fəal idrak
3.Təlim prosesi
4.İnkişaf etdirirci təlim
5.Qabaqlayıcı təlim
6.Cəlbedici təlim
7.Təlim-tərbiyə sisteminin çevikliyi

8.Əməkdaşlıq
9.Dioloji təlim.
A) 1,2,4,5,7,8,9
B) 1,2,3,4,5,6,7
C) 3,4,5,6,7,8
D) 3, 4, 8, 7, 9

**15. Fəaliyyət kateqoriyasına aid olanları seçin.**
1. Metakoqnitiv
2. İdraki (koqnitiv)
3. Kontekstual
4. Emosianal-affektiv (ünsiyyət)
5. Psixomotor
6. Faktoloji
A) 1,2,3 B) 2,4,5
C) 2,3,6 D) 1,4,6

**16. Məzmun standartının bilik və fəaliyyət komponentləri müvafiq olaraq müəyyən etməyə yardımçıdır.**




A)Təlim strategiyalarını
B) Təlim nəticəsini
C) Yeni biliyi
D) Motivasiyanı

**17. Təlimin üsullarını (texnikalarını) seçin.**
1. Motivasiya
2. BİBÖ
3. Fərdi iş
4. Klaster
5. Kublaşdırma
6. Qrup işi
A) 3,4,6 B) 2,4,5
C) 1,2,6 D) 1,4,6

**18. Nöqtələrin yerinə fasilitasiyaya aid hansı sözü yazmaq olar?**
Fasilitatorun mövqeyi, onun əsas ...., fikrin təhrik edilməsi və onun lazım olan istiqamətə yönəldilməsidir.
A) Xüsusiyyət B) Funksiya
C) Məqsəd D) Rol

**19. Kiçik qrup işi zamanı şagirdlər üçün tələb olunan qaydalardan biri yanlışdır.**
A) Qruplara bölmə üsulunu dərsin məqsədlərinə uyğun olaraq əvvəlcədən müəyyən etmək
B) Qrup üzvlərinin vəzifələrini düzgün müəyyən etmək
C) Bir-birini diqqətlə dinləmək
D) Qrup işi qaydalarına tabe olmaq

**20. Aşağıdakılardan biri iş forması deyil.**
A) Cütlərlə iş
B) Fərdi iş
C) Böyük qrupda müzakirə
D) Kiçik qruplarda iş

**21. Hansı bənddə verilmiş fasilitasiya qaydası təşkilatı dəstəklənməyə aiddir?**
A) İştirakçıların şüurunda dərsin dəqiq şəklini çəkin
B) Motivasiya mərhələsində şagirdləri dərsin movzusunun müəyyənləşdirilməsinə cəlb edin.

C) Şagirdlərdə öz fəaliyyətlərini planlaşdırmaq və təşkil etmək bacarığı formalaşdırın.
D) Konstruktivliyi dəstəkləyin, qarşıdurmaya şərait yaratmayın.

**22. Formativ qiymətləndirmə hansı məqsədlə aparılır?**
A) Fənn üzrə təlimin hər hansı mərhələsində şagirdlərin ilkin bilik və bacarıq səviyyəsini qiymətləndirmək məqsədi ilə
B) Təlim prosesinin hər hansı bir mərhələsi üçün müəyyən olunmuş nəticələr əsasında şagirdlərin bilik və bacarıqlarının formalaşma səviyyəsini qiymətləndirmək məqsədilə
C) Təhsilin hər hansı mərhələsində (tədris vahidinin, yarım ilin və ilin sonunda) şagirdlərin nailiyyətlərini qiymətləndirmək məqsədilə
D) Təlim prosesinin sonunda şagirdlərin əldə etdikləri bilikləri qiymətləndirmək məqsədilə

**23. Summativ qiymətləndirmədə neçə faiz suala düzgün cavab verən şagird "3" qiymət alır?**
A) 20% daxil olmaqla 50%
B) 20% daxil olmaqla 50%
C) 50% daxil olmaqla 80%
D) 80% daxil olmaqla 100%

**24. Formativ qiymətləndirmə hansı mərhələdə aparılır?**
A) Təlim prosesinin əvvəlində
B) Təlim prosesinin əvvəlində və sonunda
C) Təlim prosesinin sonunda
D) Dərs ilinin əvvəlindən başlayaraq mütəmadi

**25. Uyğunluğu müəyyən edin.**
1. Problem-situasiyanın yaradılması
2. Şagird-tədqiqatçı, müəllim-fasilitator
3. Dialoq və əməkdaşlığın zəruriliyi
4. Psixoloji dəstək, hörmət və etibar
a) Şagird subyektiv rolunda çıxış edir.
b) Şagird qarşısında problem qoyulur.
c) Təlim dialoji şəkildə həyata keçirilir.
d) Şagird dəstəklənməsi onların idrak fəallığını saxlamaq vasitəsidir.
A) 1b,2a,3c,4d
B) 1c,2d,3a,4b
C) 1a,2c,3d,4b
D) 1d,2a,3b,4c

## TEST 4

**1.Sualların səviyyələr üzrə paylanması hansı bənddə düzgündür?**

A) I səviyyə üzrə 20%,
II səviyyə üzrə 30%,
III səviyyə üzrə 30%, IV səviyyə üzrə 20%

B) I səviyyə üzrə 30%,
II səviyyə üzrə 20%,
III səviyyə üzrə 20%,
IV səviyyə üzrə 30%

C) I səviyyə üzrə 30%,
II səviyyə üzrə 30%,
III səviyyə üzrə 20%,
IV səviyyə üzrə 40%

D) I səviyyə üzrə 20%,
II səviyyə üzrə 20%,
III səviyyə üzrə 30%,
IV səviyyə üzrə 30%

**2. Təhsil islahatı neçənci illəri əhatə edir?**

A) 1999-2007
B) 2001-2011
C) 1999-2013
D) 1999-2009

**3. Kurikulum nədir?**

A) Təlimin təşkilinə qoyulan tələblər və qiymətləndirmə nümunələri toplusu
B) Təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin səmərəli təşkilinə, məqsədyönlü və ardıcıl həyata keçirilməsinə imkan yaradan konseptual sənəd.
C) Dərs nümunələri, qiymətləndirmə nümunələri və müəllimlər üçün digər metodik göstərişlər toplusu
D) Təlim metodu, forma və vasitələrin məcmusu

**4. Milli Kurikulum hazırlanarkən aşağıda göstərilən prinsiplərin hansı nəzərə alınmamışdır?**

A) Tələbyönümlük
B) Nəticəyönümlük
C) Subyektivlik
D) Şəxsiyyətyönümlük

**5. İbtidai təhsil səviyyəsi üçün neçə fənn səhv hazırlanıb?**

A) 10 B) 9
C) 11 D) 12

**6. Kurikulumlarda fənnin məzmunu necə verilmişdir?**

A) Bacarıqlar şəklində ifadə edilən təlim nəticələri-standartlar formasında
B) Qimətləndirmə standartları şəklində ifadə edilən təlim nəticələri-standartlar formasında
C) Biliklər şəklində ifadə edilən təlim nəticələri-standartlar formasında
D) Oyun və fəaliyyət şəklində ifadə edilən təlim nəticələri-standartlar formasında

**7. Kurikulumda məzmun standartı nədir?**

A) Şagirdlərin bilik və bacarıq səviyyəsini qiymətləndirmək üçün konkret ölçülərdir.
B) Təhsilin müəyyən mərhələsində şagirdlərin və müəllimlərin bilik və bacarıq səviyyəsinə qoyulan dövlət tələbidir

C) Təhsilin müəyyən mərhələsində şagirdlərin bilik və bacarıq səviyyəsinə qoyulan dövlət tələbidir
D) Yalnız şagird fəaliyyətinin mərhələlərini əhatə edir

**8. Aşağıdakı ifadələrdən hansılar alt- standartlara aid deyil?**
A) Əsas standartın tərkib hissəsi olub ona xidmət edir
B) Təlimin müxtəlif mərhələləri üzrə şagirdlərin inkişafını izləməyə imkan verir
C) Təlim prosesinin planlaşdırılması və qurulmasını istiqamətləndirir
D) Təhsil pillələri üzrə dəyişməz qalır

**9. 4.1.4. Ədədin kəmiyyətin göstəricisi olduğunu başa düşdüyünü nümayiş etdirir. Bu standart hansı bilik və fəaliyyət növünə aiddir?**
A) Deklorativ bilik bilik - idraki fəaliyyət
B) Kontekstual bilik - psixomator fəaliyyət
C) Prosedural bilik - idraki fəaliyyət
D) Deklorativ və kontekstual bilik

**10. Təlim strategiyaları seçilərkən aşağıdakıların hansı nəzərə alınmır?**
A) Qiymətləndirmə standartları
B) Fənnin məqsədləri
C) Valideynin arzusu
D) Fənnin məqsəd və vəzifələri

**11. Fənn kurikulumlarında təlim strategiyalarına nə *daxil deyil?***
A) Fənnin təliminə verilən əsas tələblər
B) Təlimin təşkilində istifadə olunan forma və üsullar
C) Fənn üzrə təlimin planlaşdırılması
D) Kurrikulum islahatının mərhələləri

**12. Təlim üsullarını seçin**
1.Müzakirə 2.Qeyri-standart dərs
3.Beyin həmləsi 4.Dərs oyun
5.Venn diaqramı 6.Debatlar
7.Kiçik qruplarla iş
A) 1,3,5,6 B) 1,2,4,6
C) 1,4,5,7 D) 3,4,5,6

**13. Təhsildə qiymətləndirmə nədir?**
A) Təhsil prosesində şagird nailiyyətlərinin beynəlxalq tələblərə uyğun müvafiq rəqəmlərlə ölçülməsi
B) Təhsil prosesində nailiyyətlərin müəyyən olunmuş keyfiyyət səviyyəsinə uyğunluğunun obyektiv, etibarlı vasitələrlə ölçülməsidir.
C) Təhsil prosesində nailiyyətlərin müəyyən olunmuş keyfiyyət səviyyəsinə uyğunluğunun müəllimin seçdiyi kriteriyalarla ölçməsi.
D) Təhsil prosesində nailiyyətlərin müəyyən olunmuş keyfiyyət səviyyəsinə uyğunluğunun yalnız testlərlə ölçülməsidir

**14. Hansı məktəbdaxili qiymətləndirmənin növlərinə *aid deyil?***

A) Diaqnostik qiymətləndirmə
B) Formativ qiymətləndirmə
C) Summativ qiymətləndirmə
D) Milli qiymətləndirmə

**15. Summatıv qiymətləndirmə nə vaxt *aparılmır*?**

A) Yarımilin sonunda
B) Dərs ilinin əvvəlində
C) Ayın sonunda
D) Bölmə başa çatdıqda

**16. Qiymətləndirmə standartları nədir?**

A) Təhsilin müəyyən mərhələsində şagirdlərin və müəllimlərin nailiyyət səviyyəsinə qoyulan tələb.
B) Tədris ilinin sonunda şagirdlərin nailiyyət səviyyəsinə və məktəbin fəaliyyətinə qoyulan dövlət tələbidir.
C) Təhsilin müəyyən mərhələsində şagirdlərin nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir.
D) Şagird və müəllimlərin bilik və bacarıqlarına qoyulan tələb

**17. Qiymətləndirmə standartları sxem üzrə neçə səviyyədə hazırlanır?**

A) 3
B) 5
C) 4
D) 2



**18. Təlim standartlarına uyğunluq, mubahisəli faktların olmaması, faktların dəqiqliyi, orfoqrafik, durğu işarələri və qrammatik qaydaların gözlənilməsi dərsliyə verilən hansı tələbin xüsusiyyətləridir?**

A) Düzgünlük B) Əyanilik
C) Tamlıq D) Ardıcıllıq

**19. Qeyd olunan bəndlərdən hansı qiymətləndirmə standartıdır?**

A) 3.4.1.Q1. Borc analayışını izah etməyi bacarır.
B) 3.4.1. Mənəvi borc (böyüklərə hörmət, kiçiklərə və xəstələrə qayğı) haqqında təsəvvürlərini ifadə edir.
C) 3.3.2. Dinlər haqqında ilkin təsəvvürlərini sadə şəkildə izah edir.
D) 3.2.2. Mənəviyyata zidd xüsusiyyətlərə (yalançılıq, paxıllıq, xəbərçilik) münasibət bildirir.

**20. Test nümunələri nəyin əsasında hazırlanır?**

A) Əsas standartların
B) Qiymətləndirmə standartlarının
C) Alt standartların
D) Əsas və alt standartların

**21. "Beyin həmləsi" nədir?**

A) İş üsulu
B) Dərs forması
C) Təlim üsulu
D) Dərs nümunəsi

**22. Hansı cəhətlər kurikulumun səciyyəvi xüsusiyyətlərinə aiddir?**

1. Bəzi fənlər üzrə qiymət normaları müəyyən edilib
2. Nəticəyönümlüdür
3. Şəxsiyyətyönümlüdür
4. Fənyönümlüdür
5. İnteqrativlik əsas prinsip kimi qəbul olunur
6. Bilikyönümlüdür

A) 2,4,6 B) 1,3,5
C) 2,3,5 D) 3,5,6

**23. İllik planlaşdırmaya hansı daxil deyil?**

A) Standart B) İnteqrasiya
C) Motivasiya D) Resurslar

**24. Bunlardan hansı fəal təlimə xas xüsusiyyət *deyil?***

A) Şəxsiyyətyönümlü
B) Nəticəyönümlü
C) Müəllimyönümlü
D) Tələbyönümlüdür

**25. "______ təlimin məzmunu, təşkili və qiymətləndirilməsilə bağlı bütün məlumatları özündə əks etdirən konseptual sənəddir" Nöqtələrin yerinə uyğun sözü seçin.**

A) Fəal təlim
B) Fasilitator
C) Kurikulum
D) Məzmun xətti

## TEST 5

**1. Düzgün variantı seçin.**
A) Şagirdin fikri nəzərə alınmır, müəllim şərh edəndir
B) Şagirdin fikri əsasdır, dərs avtoritar rejimdədir
C) Müəllim fasilitator, şagird tədqiqatçı
D) Valideyinin fikri nəzərə alınır, müəllim tədqiqatçı

**2. Fəal təlimə xas xüsusiyyəti seçin.**
A) Dərsdə səs-küy olduğu üçün problemlər yaranır.
B) Şagird özü tədqiqatçı olduğu üçün yorulur.
C) Şagirdin dərsə marağını artırır, axtarışlara sövq edir.
D) Əsas yer müəllimin nitqinə verilir.

**3. Bunlardan hansı doğru deyil?**
A) Fəal təlimdə şagird tədqiqatçıdır.
B) Fəal təlimdə müəllim fasilitatordur.
C) Fəal təlim avtoritar rejimdə reallaşır.
D) Fəal təlimdə valideyn əsasdır

**4. Kurikulum termini nə vaxtdan Azərbaycanda istifadə olunur?**
A) 90-cı illərin əvvəli
B) 1912-ci ildən
C) 90-cı illərin axırı
D) 1956 –cı ildə

**5. Hansı qiymətləndirmə növündə şagirdlərin ilkin bacarıq və vərdişləri müəyyən olunur?**
A) Summativ
B) Formativ
C) Diaqnostik
D) Beynəlxalq

**6. Hər bir standart nəyə ayrılır?**
A) Meyara
B) Məqsədə
C) Alt standarta
D) Tədris vahidinə

**7. Bunlardan hansı iş formalarına *aid deyil?***
A) Fəal iş
B) Kollektivlə iş
C) Cütlərlə iş
D) Qruplarla iş

**8. Bunlardan hansı alt-standartı *səciyyələndirmir?***
A) Əsas standartdakı məlumatı aydınlaşdırır
B) Təlim strategiyalarının seçilməsinə şərait yaradır
C) 2 rəqəmlə ifadə olunur
D) 3 rəqəmlə ifadə olunur

**9. Azərbaycan Respublikasının "Təhsil haqqında" qanunu nə vaxt qüvvəyə minib?**
A) 19 iyun 2010-cu il
B) 19 iyun 2011-ci il
C) 27 iyun 2007-ci il
D) 19 iyun 2009-cu il

**10. "Təhsil haqqında" qanun neçə fəsil və neçə maddədən ibarətdir?**
A) 6 fəsil, 40 maddə
B) 7 fəsil, 47 maddə
C) 6 fəsil, 47 maddə
D) 7 fəsil, 40 maddə

**11. Sxemi tamamlayın.**




A) Motivasiya
B) Tədqiqat sualı
C) Məlumat mübadiləsi
D) Ümumiləşdirmə.

**12. Azərbaycan Respublikasında hansı təhsil formaları tətbiq olunur?**
A) Formal, fərdi, informal
B) Qeyri formal, informal, özəl
C) Formal və qeyri formal
D) Formal, qeyri formal, informal

**13. Diaqnostik qiymətləndirmənin vasitələrinə aid olanları göstərin:**
1.söhbətlər
2.müəllimin sorğu vərəqi
3. çalışmalar
4. müəllimin qeydiyyat vərəqi
5. müəllimin öyrənmək istədiyi məsələnin yazıldığı vərəq
A) 3, 4, 5, 1, 2
B) 1, 2, 3, 5
C) 2, 4, 5, 3, 1
D) 1, 5, 4, 3, 2
E) 2, 3, 4, 5



**14. "*1.1.3. İnformasiyadan istifadə üsullarını sadə formada izah edir*".** alt standartının məzmun komponentinin hansı kateqoriyaya aid olduğunu **müəyyələşdirin:**
A) Koqnitiv
B) Kontekstual
C) Prosedural
D) Deklarativ

**15. Tədris prosesinin sonunda bütün səviyyələr üzrə sualların bölgüsü necə olmalıdır?**
A) I səviyyə üzrə suallar 20%
II səviyyə üzrə suallar 30%
III səviyyə üzrə suallar 30%
IV səviyyə üzrə suallar 20%
B) I səviyyə üzrə suallar 20%
II səviyyə üzrə suallar 20%
III səviyyə üzrə suallar 30%
IV səviyyə üzrə suallar 20%
V səviyyə üzrə suallar 10%
C) I səviyyə üzrə suallar 30%
II səviyyə üzrə suallar 30%
III səviyyə üzrə suallar 30%
IV səviyyə üzrə suallar 10%
D) I səviyyə üzrə suallar30%
II səviyyə üzrə suallar 20%
III səviyyə üzrə suallar 30%
IV səviyyə üzrə suallar 20%

**16. Nəzəri materiallar, praktik materiallar, təsviri materiallar və qiymətləndirmə materialarının olması dərsliyə verilən hansı tələbi xarakterizə edən xüsusiyyətlərdir?**
A) Düzgünlük B) Müasirlik
C) Tamlıq D) Uyğunluq

**17. Havard Qardner nəzəriyyəsinə gorə dərketmənin necə usulu var?**
A) 2  B) 8  C) 5  D) 3

**18. Muəllim şagirdlərə "Mənim ailəm" movzusunda şifahi mətn qurmağı tapşırdı. Hansı dərketmə üsuluna aid olan şagird bu tapşırığın icrasında daha uğurlu nəticə göstərə bilər?**
A) Linqvistik dərketmə
B) Vizual/məkan
C) Naturalistik/təbiət
D) Təbiət/məkan

**19. Təklikdə oyrənmək vərdişləri nümayiş etdirir, qarşısındakı insanın kim olduğunu, nə edə biləcəyini və nə etmək istədiyini bilir. Qeyd olunanlar hansı dərketmə üsulunu xarakterizə edir?**
A) linqvistik dərketmə
B) fərddaxili
C) fərdlərarası
D) məntiqi riyazi

**20. Üç dost nəyi xoşladıqları haqqında söhbət edir. Anar deyir: "Mən bağda gəzməyi, quşların şən nəğmələrini dinləməyi, heyvanlara qulluq etməyi cox xoşlayıram". Vusal deyir: " Mən idmanı çox sevirəm. Məktəbimizdəki idman dərnəyinə yazılmışam". Elnur isə deyir: "Mən isə internetdə işləməyi çox xoşlayıram. İnternet vasitəsilə müxtəlif filmlərə baxmaq, maraqlandığın hər şeyin şəklini tapmaq mümkündür" dostların dərketmə üsullarını müəyyən edin.**
A) Anar- naturalistik, Vüsal - bədən/kinestik, Elnur - vizual/məkan
B) Elnur- linqvistik, Anar - emosional, Vüsal - vizual/məkan
C) Vüsal - psixomotor, Elnur - idraki, Anar - emosional
D) Vüsal - emosional, Anar - linqvistik, Elnur - naturalistik

**21. Dərsliklərə verilən tələblər hansılardır?**
1. Düzgünlük  2. Şüurluluq
3. Əyanilik  4. İfadəlilik
5. Mənbələrin gostərilməsi
6. Fəal təlim üçün şəraitin yaradılması
A) 1,3,4, 6  B) 2,3,4,5
C) 1,3,5,6  D) 2,3,4,6

**22. Multimediya nədir?**
A) Səs, şəkil, mətn, animasiya, video kimi iki və daha artıq mediyanın birləşməsi
B) Video kadrlardan istifadə etmək
C) Filmə xususi effektlər əlavə edilməsi: video effektlər və ya hərəkət effektləri
D) Video effektləri və ya hərəkət effektləri və şəkil

**23. Fənn kurikulumunun təlim strategiyaları bölməsi hansı məsələləri əhatə edir?**
A) Məzmun standartları, təlim usulları və qiymətləndirmə standartları

B) Təlimin təşkilinə verilən tələblər, təlim fəaliyyətinin planlaşdırılması və məktəbdaxili qiymətləndirmə
C) Təlimin forma və usulları, təlimin təşkilinə verilən tələblər və təlim fəaliyyətinin planlaşdırılması
D) Təlimin təşkilinə verilən tələblər, qiymətləndirmə standartları, forma və üsullar

**24.Pedaqoji prosesin tamlığı nədir?**
A) Təlim məqsədləri kompleks (inkişafetdirici, oyrədici, tərbiyəedici) şəkildə həyata kecirilir, real nəticələrlə yekunlaşan muəllim və şagird fəaliyyətini əhatə edir.
B) Pedaqoji proses munasib maddi-texniki baza əsasında və sağlam mənəvi-psixoloji mühitdə təşkil edilir.
C) Tədris və təlim işi şagirdlərin maraq və tələbatlarının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir.
D) Şagirdlərin istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir.

**25. Formativ qiymətləndirmənin metodları və onların məzmunu arasındakı uyğunluğu tapın:**
1. Portfolio sistemi
2. Müsahibə
3. Kağız üzərində tapşırıqlar
4. Özünüqiymətləndirmə vərəqləri
5. Qrupdaxili qiymətləndirmə



a) Şagirdə aid olan sənədlər qovluğu
b) Şagirdin nə danışmaq və düşünmək istədiyini öyrənmək məqsədilə aparılan iş
c) Kağız üzərində öz suallarını və problemlərini yazırlar.
d) Meyarlar yazılmış vərəqlər vasitəsilə qiymətləndirmə aparılır.
e) Şagirdlər həm özlərini, həm də yaldaşlarını “ + ” və “ - “ işarələri ilə qiymətləndirirlər.
A) 1a; 2b; 3c; 4d; 5e
B) 1c; 2a; 3a; 4e; 5d
C) 1a; 2b; 3c; 4e; 5d
D) 1e; 2b; 3c; 4d; 5a

## TEST 6

**1. "Umumi təhsil pilləsinin dovlət standartı və proqramları (kurikulumları)" nə vaxt təsdiq edilmişdir?**
A) 30 oktyabr 2006-cı il
B) 26 aprel 1999-cu il
C) 3 iyun 2010-cu il
D) 19 iyun 2013 –cü il

**2. Məlumat xarakterli biliklər hansı kateqoriyaya aiddir?**
A) Koqnitiv
B) Kontekstual
C) Prosedural
D) Deklarativ

**3. Əşya və ya hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün bu üsuldan istifadə olunur. Haqqında danışılan üsulu müəyyənləşdirin.**
A) Ziqzaq B) Akvarium
C) BİBÖ D) Venn diaqramı

**4. "Şagirdin fəaliyyəti və yaradıcılığı öndədir" fikri biliyin hansı növünə aiddir?**
A) Deklarotiv B) Kontekstual
C) İdraki D) Prosedural

**5. İdrak taksonomiyasının səviyyələrinə aiddir.**
A) Müqayisə etmək
B) Dərketmə
C) Dəstəkləmə
D) Sintez

**6. 1.2 Riyazi əməllər və prosedurlar, onların arasındakı əlaqələr hansı fəaliyyət komponentinə daxildir?**
A) Prosedural B) Bilik
C) Psixomotor D) İdraki

**7. Fəal təlimin xüsusiyyətləri hansılardır?**
A) təfəkkürə əsaslanır, bilik mənbələri müxtəlifdir
B) müəllim əsas bilik mənbəyi kimi, şagirdlər passivdir
C) şagirdlər fəaldır, hafizəyə əsaslanır, dialoji təlim
D) bilik mənbələri müxtəlifdir, monoloji təlim

**8. Kiçik qruplarla iş formasının hansı mənfi cəhəti var?**
A) Zəif şagirdlərlə məşğul olmağın çətinliyi
B) İşgüzar səs-küyün olması
C) Kimin hansı biliyə malik olması, hansı iş bölgüsünü həyata keçirməsi və qiymətləndirmənin çətin olması
D) Vaxt itkisinin olması

**9. Perspektiv planlaşdırma aparmaq üçün müəllimdə zəruri hesab edilən bacarıqlar hansılardır?**
1. Məzmun standartlarına əsasən tədris vahidi və mövzular üzrə dəqiqləşmələr aparmaq
2. Alt-standartlar siniflər üzrə dəyişilir və mürəkkəbləşir
3. Tədris vahidlərinin və mövzuların ardıcıllığını müəyyənləşdirmək

4. İnteqrasiya imkanlarını müəyyən etmək
5. Təlim məqsədinə görə məqsədyönlü vaxt bölgüsü aparmaq
6. Təlim məqsədlərinə görə nailiyyətlərin qiymətləndirilməsinin növlərini müəyyənləşdirmək
7. Taksonomiyalar üzrə bilik komponenti dərinləşir (söz-cümlə-mətn), fəaliyyət komponenti mürəkkəbləşir (idrak səviyyələri artır).
8. Əlavə resurslar seçmək
A) 1,3,4,5,7,8
B) 1,2,3,4,5,8
C) 1,3,4,5,6,8
D) 2,3,4,6,7,8

**10. Fəal dərsin quruluşunu düzgün ardıcıllıqla düzün.**
1. Tədqiqatın aparılması
2. Motivasiya
3. Məlumatın müzakirəsi və təklifi
4. Nəticələrin çıxarılması
5. Qiymətləndirmə və ya refleksiya
6. Preduktiv (yaradıcı) təqdimetmə
7. Məlumatın mübadiləsi
A) 1.2.3.5.6.4.7
B) 2.1.7.3.4.6.5
C) 2.1.3.5.6.7.4
D) 2.3.1.5.4.7.6.

**11. Fəal təlimi xarakterizə edən 3 xüsusiyyəti seçin**
1. Təlimin subyekt- subyekt xarakter daşıması
2. Bilik mənbələri müxtəlifdir
3. Monoloji təlim
4. Biliklərin yaradıcı tətbiqi
5. Müəllim əsas bilik mənbəyidir



A) 1.2.4 B) 2.3.4
C) 1.3.5 D) 2.4.5

**12. Təfəkkürün inkişaf etməsini göstərən ifadələri müəyyən edin və sxemə uyğun olaraq sıralayın.**
1.Məntiqi 2.Tənqidi
3. Yaradıcı
a. Əhəmiyyətin rolunu qiymətləndir
b. Oxşarlıqları və fərqləri tap
c. Proqnoz ver, müqayisə et və analoqu tap.
A) 1a,2b,3c B) 1b,2a,3c
C) 1c,2b,3a D) 1b,2c,3a

**13. Aşağıdakılardan hansı iş forması *deyil?***
A) Cütlərlə B) Fərdi
C) Müzakirə D) Kollektiv

**14. Boşluğu doldurun.**
Formativ qiymətləndirmə zamanı müəllimin məqsədi şagirdin xronoloji məsələ həll etmək bacarığını yoxlamaqdırsa onun istifadə edəcəyi üsul ..., qiymətləndirmə vasitəsi isə ..
A) Üsul- tapşırıq vermə, vasitə-çalışmalar
B) Üsul- qeydiyyat vərəqləri, vasitə - nəql etmə
C) Üsul- hesablamalar, vasitə - kompüterdən istifadə
D) Üsul- testlər, vasitə - tapşırıq vermə

**15. Gündəlik planlaşdırmanın mərhələlərinə daxil olanları ardıcıllıqla sıralayın.**
1. İş üsulları 2. İş formaları
3. Resurslar 4. Standart

5. Müzakirə
A) 4.5.2.3.1. B) 5.2.1.4.3.
C) 5.1.3.6.2.4. D) 4.2.1.3.5

**16.** Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı nə vaxt təsdiq edilmişdir? ?
A) 19 iyun 2010 -cu il
B) 24 oktyabr 2013 -cü il
C) 5 iyun 2006- cı il
D) 19 yanvar 2015-ci il.

**17. Biri kompetensiyaya daxil deyil.**
A) Biliklər
B) Bacarıqlar C) Dəyərlər
D) Qiymətləndirmə

**18. "Təhsil haqqında" qanunun ən az maddədən ibarət olan fəsli hansıdır?**
A) 6-cı fəsil B) 5-ci fəsil
C) 4-cü fəsil D) 2-ci fəsil

**19. Üç dost nəyi xoşladıqları haqqında söhbət edir. Anar deyir: "Mən bağda gəzməyi, quşların şən nəğmələrini dinləməyi, heyvanlara qulluq etməyi çox xoşlayıram". Vüsal deyir: " Mən idmanı çox sevirəm. Məktəbimizdəki idman dərnəyinə yazılmışam". Elnur isə deyir:"Mən isə internetdə işləməyi çox xoşlayıram. Internet vasitəslə müxtəlif filmlərə baxmaq, maraqlandığın hər şeyin şəklini tapmaq mümkündür".dostların dərketmə üsullarını müəyyən edin.**
A) Anar- naturalistik, Vüsal - bədən/kinestik, Elnur - vizual/məkan
B) Elnur- linqvistik, Anar - emosional, Vüsal - vizual/məkan
C) Vüsal - psixomotor, Elnur - idraki, Anar - emosional
D) Vüsal- naturalistik, Anar - kinestik, Elnur – məkan

**20. Aşağıdakılardan təhsil alanların mənəvi tərbiyəsində əsas metod.**
A) Tənbeh etmək
B) İnandırmaq
C) Tapşırıq vermək
D) Məsuliyyətli işə cəlb etmək



**21. Müəllimlərin innovativ fəaliyyətinin nəticəsinə aid olanları göstərin.**
1. Təhsilin keyfiyyəti yüksəlir
2. Təhsildən yayınma halları artır
3. Təhsil müəssisəsinin nüfuzu artır
4. Şagirdlərin kompetensiyası artır
5. Təhsil müəssisəsində psixoloji iqlim pisləşir
A) 2,3,5
B) 1,3,5
C) 1,3,4
D) 1,2,3

**22. Motivasiya hansı yollarla yaradılır?**
A) Standartın düzgün seçilməsi yolları ilə
B) Rəmzi, sual vermə,problemin müxtəlif yolları ilə
C) Resurslardan düzgün istifadə yolları ilə

D) Məqsədin düzgün seçilməsi yolları ilə

**23. Fərdi iş formasının hansı mənfi cəhəti var?**
A) Şagirdlərin daha yaxından əməkdaşlıq etməsini təmin etmək
B) Bir şagirdi mükəmməl öyrətmək
C) Kimin hansı biliyə malik olması, hansı iş bölgüsünü hjəyata keçirməsi və qiymətləndirmənin çətin olması
D) Artıq vaxt itkisinin olması

**24. "Müəyyən fənn üzrə məlumat xarakterli biliklərdir" fikri biliyin hansı növünə aiddir?**
A) Deklarotiv B) İdraki
C) Kontekstual D) Prosedural

**25. Təhsil kurikulumları müxtəlif növlərdə olur. Onlar arasındakı uyğunluğu tapın.**
1. Fənyönümlü
2. Şəxsiyyətyönümlü
3. Nəticəyönümlü
a) Kurikulumlar konkret fənn üzrə standartları əhatə edir.
b) Kurikulumlar təhsildə əldə ediləcək nəticələri onlarla bağlı bacarıq və vərdişləri əhatə edir.
c) Kurikulumlar şəxsiyyət üçün vacib keyfiyyətləri - həyati bacarıq və vərdişləri əhatə edir.
d) Kurikulumlar şagirdlərdə vacib keyfiyyətləri - həyati bacarıq və vərdişləri, təhsildə əldə ediləcək nəticələri əldə edir.
e) Kurikulumlar təhsildə əldə ediləcək nəticələri (fənlər, siniflər və təhsil pillələri üzrə) əhatə edir.

A) 1a; 2c; 3b
B) 1b; 2a; 3c
C) 1a; 2b; 3c
D) 1c; 2a; 3b

## TEST 7

**1. "2.1.3.İdman növlərinə (atletika, gimnastika) aid sadə hərəkətləri nümunələrə müvafiq təkrar edir" alt standartının fəaliyyət hissəsinin növünü və səviyyəsini müəyyənləşdirin:**
A) psixomotor, təqlid etmək
B) idraki, tətbiq etmək
C) emosional, dəyərlərin daşıyıcısı olmaq
D) psixomotor, hazır olmaq

**2. Təlim üsullarını seçin.**
1. BİBÖ
2. Qrup işi
3. Karusel
4. Kollektivlə iş
5. Auksion
6. Ziqzaq
7. Cütlərlə iş
A) 1,2, 4,7
B) 2, 4,7
C) 1,3,5,6
D) 1,2,4,6

**3. Tədris və təlim işi şagirdlərin maraq və tələbatlarının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir. Qeyd olunan fikir təlimin təşkilinə verilən tələblərindən hansının şərhidir?**
A) Pedaqoji prosesin tamlığı
B) Təlimdə dəstəkləyici muhitin yaradılması
C) Təlimdə bərabər imkanların yaradılması
D) Şagirdyönümlülük

**4. Təhsil taksonomiyaları haqqında fikirlərdən biri *səhvdir.***
A) Taksonomiya təlim məqsədlərinin ardıcıllığını və əlaqəliliyini təmin edir;
B) Taksonomiya qısa müddətdə böyük həcmli materialı öyrənmək imkanı verir;
C) Taksonomiya təlimin keyfiyyətini yuksəldir;
D) Taksonomiya təlimin konkretliyinə əminlik yaradır;

**5. Təlimin neçə forması var?**
A) 2
B) 4
C) hər müəllimin oz təlim forması var.
D) 1

**6. Qiymətləndirmə ilə bağlı termin və ifadələri seçin.**
1. Qiymətləndirmə standartları
2. Qiymətləndirmə cihazları
3. Qiymətləndirmə meyarları
4. Qiymətləndirmə pedaqoji tələblər
5. Portfolio
6. Rubrik
A) 1, 3, 5, 6
B) 1, 4, 5, 6
C) 1, 3, 4, 5
D) 2, 3, 4, 5
E) 1, 2, 4, 6

**7. Aşağıdakılardan biri mikroidraki bacarıq deyil.**
A) Billmək
B) Anlamaq
C) Qərar qəbul etmək
D) Analiz

**8. Aşağıdakılardan biri makroidraki bacarıqdır:**
A) Tətbiq etmək
B) Təhlil etmək
C) Problemi həll etmək
D) Dəyərləndirmək

**9. Fənn kurikulumları əsasında təlimin planlaşdırılmasının necə növü var?**
A) 1
B) 2
C) 3
D) 4

**10. Perspektiv planlaşdırma hansı müddəti əhatə edir?**
A) Aylıq
B) Gündəlik
C) Rüblük
D) İllik

**11. Perspektiv planlaşdırma aparmaq üçün müəllim hansı bacarıqlara malik olmalıdır?**
1.Məzmun standartlarına əsasən dərslikdəki (dərslik olmayan fənlər uzrə müəllim vəsaitindəki) tədris vahidi və mövzular uzrə dəqiqləşmələr aparmaq.
2.Tədris vahidlərinin və mövzuların ardıcıllığını müəyyənləşdirmək.
3. İnteqrasiya imkanlarını müəyyən etmək.
4. Mövzuya uyğun motivasiyanı müəyyənləşdirmək.
5. Əlavə resurslar secmək.
A) 2,3,4,5.
B) 1,3,4,5.
C) 1,2,3,5.
D) 1,2,4,5.

**12. Aşağıdakılardan hansılar nümunəvi perspektiv planlaşdırma sxeminə aiddir.**
1. Tədris vahidi
2. Motivasiya yaratmaq
3. Mövzular
4. Standratlar
5. İnteqrasiya
6.Tədqiqat sualının qoyuluşu
7. Tarix
A) 1,3,4,5,7
B) 1,2,4,5,6
C) 1,3,5,6,7
D) 1,2,3,4,5.

**13. Aşağıdakı prinsiplərdən hansı tədris vahidlərinin və mövzuların ardıcıllığına daxil deyil?**
A) Məntiqi
B) Sadədən murəkkəbə
C) Əlaqəlilik
D) Xronoloji

**14. Aşağıdakılardan hansı fəal dərsin mərhələləridir?**
1. Motivasiya, problemin qoyuluşu
2. Tədqiqatın aparılması
3. Məlumat mubadiləsi
C) Motivasiyanın yığcamlı-qısa vaxt ərzində həyata keçirilməsi
D) Onun hazırlanmasına müəllimin az vaxt və qüvvə sərf etməsi

**16. Texnologiya fənn kurikulumuna nə daxildir?**
A) Fənn məzmunu, təlimin təşkili, qiymətləndirmə
B) Məzmun xətləri ,forma və üsulların təkmilləşdirilməsi, qiymətləndirmə
C) Giriş, fənn məzmunu, təlim strategiyası, qiymətləndirmə
D) Məzmun standartları, təlim strategiyası, qiymətləndirmə vasitələri

**17. Məzmun standartlarının əsasını nə təşkil edir?**
A) Təlim mövzuları
B) Təlim nəticələri
C) Təlim məqsədləri
D) Təlim üsulları

**18. Diaqnostik qiymətləndirmənin üsullarına aid olanları seçin:**
1. Müşahidə
2. Verbal (sözlə) qiymətləndirmə
3. Tapşırıq vermə
4. Özünü qiymətləndirmə
5. Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq
A) 1,3,5 B) 2,4,5
C) 1,2,3,5 D) 2,4,1

**19. Təhsil pillələri və fənnlər üzrə ümumi təlim nəticələri hansı sənəddə əks olunub?**
A) Fənn kurikulumda
B) Ümumi təhsil pilləsinin dövlət standartları və proqramların
C) Ənənəvi tədris proqramında
D) Qiymətləndirmə Konsepsiyasında



**20. Ümumi təhsil pilləsi neçə səviyyədən ibarətdir?**
A) 2 B) 3 C) 4 D) 5

**21. Kompetensiya nədir?**
A) Təhsil, bacarıqlar, dəyərlər, keyfiyyətlər, məzmun.
B) Biliklər, bacarıqlar, dəyərlər, prinsiplər, vərdişlər.
C) Vasitələr, bacarıqlar, vərdişlər
D) Biliklər, bacarıqlar, dəyərlər, keyfiyyətlər, vərdişlər.

**22. Aşağıdakı anlayışlardan hansı fənn kurikulumuna *aid deyil?***
A) Məzmun standartı
B) Ümumi təlim nəticələri
C) Həftəlik dərs saatlarının miqdarı
D) Məzmun xətti

**23. Milli kurikulum xüsusiyyətləri aşağıdakılardan hansılardır?**
A) Şagirdyönümlüdür, şəxsiyyətyönümlüdü , nəticəyönümlüdür, qiymətləndirmə standartları müəyyən edilib.
B) Bilikyönümlüdür, nəticəyönümlüdür.
C) Fənnyönümlüdür, şagirdyönümlüdür
D) Təklifyönümlüdür, müəllimyönümlüdür

**24. Nəticəyönümlü deyəndə nə nəzərdə tutulur?**
A) əvvəlcədən müəyyən edilmiş şagird nailliyyətlərinin nəticələri formasında əks etdirilməsi

B) nəticəni şagirdin özünün müəyyən etməsi
C) nəticənin müəllim tərəfindən əldə edilməsi
D) nəticənin valideyn tərəfindən əldə edilməsi

**25. Uyğunluğu müəyyən edin.**
1. Problem – situasiyanın yaradılması
2. Şagird - tədqiqatçı, müəllim – fasilitator.
3. Dialoq və əməkdaşlığı zəruruliyi
4. Psixoloji dəstək: hörmət və etibar
a) Şagird subyekt rolunda çıxış edir
b) şagird qarşısında problem qoyulur
c) təlim dioloji şəkildə həyata keçirilir.
d) şagirdin dəstəklənməsi onların idrak fəallığını saxlamaq vasitəsidir.
A) 1b; 2a; 3c; 4d.
B) 1c; 2d; 3a; 4b.
C) 1a; 2c; 3d; 4b.
D) 1d; 2a; 3b; 4c.

## TEST 15

**1. Aşağıdakı fikirlərdən hansı tədqiqatın aparılması mərhələsinə aiddir?**

A) İnsan təfəkkürünü hərəkətə gətirən və şagirdlərin idrak fəallığına təkan verən prosesdir

B) Bu mərhələdə iştirakçılar tədqiqatın gedişində əldə etdikləri tapıntıların, yeni informasiyanın mübadiləsini aparırlar

C) Dərsdə əldə edilmiş bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsi məqsədi güdən sərbəst iş formasıdır

D) Bu zaman yeni faktların öyrənilməsi və bu suallara cavabların tapılması gedişində düşünmək və yeni bilgiləri kəşf etmək üçün münasib şərait yaranır

**2. Aşağıdakı fikirlərdə hansı yaradıcı tətbiqetmə mərhələsinə *aid deyil?***

A) Şagirdlərin ilkin idrak fəallığına təkan verən prosesdir

B) Biliklərin mənimsənilməsinin başlıca meyarıdır

C) Biliyi möhkəmləndirir, onun praktiki əhəmiyyətini uşağa açıb göstərir

D) Bu mərhələ vaxt etibarilə yalnız bir akademik dərslə məhdudlaşmaya da bilər

**3. "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" nə vaxt təsdiq edilmişdir?**

A) 30 oktyabr 2006-cı il

B) 26 aprel, 1999-cu il

C) 3 iyun, 2010-cu il

D) 19 iyun, 2011 –ci il

**4. Təlim üsullarını seçin.**

1. müzakirə
2. Qeyri-standart dərs
3. Beyin həmləsi
4. Kiçik qruplarla iş
5. Venn diaqramı
6. Debatlar
7. Dərs oyun

A) 1.3.5.6.

B) 1.2.4.6.

C) 1.4.5.7.

D) 3.4.5.6

**5. "Sinifdə 12 qız,13 oğlan var" mülahizəsinə uyğun olan doğru mülahizəni seçin.**

A) Sinifdəki uşaqların az hissəsi oğlandır.

B) Sinifdəki şagirdlərin çoxu qızdır.

C) Sinifdəkilərin bəzisi qız, bəzisi oğlandır.

D) Sinifdəki qız və oğlan şagirdlərinin sayı bərabərdir.

**6. Summativ qiymətləndirmənin nəticələri harada qeyd edilir?**

A) Sinif jurnalında

B) Şagirdin iş dəftərində

C) Valideyn üçün məlumat vərəqində

D) Müəllimin şəxsi qeyd dəftərində

**7. Məzmun standartı neçə hissədədən ibarətdir?**

A) 1

B) 2

*Kurikulum 2015*

C) 3
D) 4

**8. Təhsil islahatı neçənci illəri əhatə edir?**
A) 1999-2007
B) 2001-2011
C) 1999-2013
D) 1999-2009

**9. Tədris prosesinin sonunda bütün səviyyələr üzrə sualların bölgüsü necə olmalıdır?**
A) I səviyyə üzrə 20%,
II səviyyə üzrə 30%.
III səviyyə üzrə 30%,
IVsəviyyə üzrə 20%
B) I səviyyə üzrə 20% ,
II səviyyə üzrə 20%,
III səviyyə üzrə 30%,
IV səviyyə üzrə 20%,
V səviyyə üzrə 10%
C) I səviyyə üzrə 30%,
II səviyyə üzrə 30%,
III səviyyə üzrə 30%,
IV səviyyə üzrə 10%
D) I səviyyə üzrə 30%,
II səviyyə üzrə 20%,
səviyyə üzrə 30%,
IV səviyyə üzrə 20%

**10. Qeyd olunan bəndlərdən hansı qiymətləndirmə standartıdır?**
A) 3.4.1 Q1 Boro anlayışını izah etməyi bacarır
B) 3.4.1. Mənəvi borc (böyüklərə hörmət, kiçiklərə və xəstələrə qayğı) haqqında təsəvvürlərini ifadə edir
C) 3.3.2. Dinlər haqqında ilkin təsəvvürlərini sadə şəkildə izah edir
D) 3.2.2. Mənəviyyata zidd xüsusiyyətlərə (yalançılıq, paxıllıq, xəbərçilik) münasibət bildirir

**11.Test nümunələri nəyin əsasında hazırlanır?**
A) Əsas standartların
B) Qiymətləndirmə standartlarının
C) Alt-standartların
D) Əsas və alt standartların

**12. Qiymətləndirmə standartları neçə səviyyədə təyin olunmuşdur?**
A) 4
B) 10
C) 5
D) 3

**13. Hansı cəhətlər kurikulumu səciyyələndirənlərə aiddir?**
1. Bəzi fənlər üzrə qiymət normaları müəyyən edilib
2. Nəticəyönümlüdür
3. Şəxsiyyətyönümlüdür
4. Fənyönümlüdür
5. İnteqrativlik əsas prinsip kimi qəbul olunur
6. Bilikyönümlüdür

A) 2,4,6
B) 1,3,5
C) 2,3,5
D) 3,5,6

**14. Hansı təlim strategiyalarına *aid deyil?***
A) Təlim fəaliyyətinin planlaşdırılması
B) İş formaları
C) Standart
D) Təlimin təşkilinə verilən tələblər

**15. Bunlardan hansı fəal təlimə xas xüsusiyyət *deyil?***
A) Şəxsiyyətyönümlü
B) Nəticəyönümlü
C) Müəllimyönümlü
D) Şagirdyönümlülük

**16.”......təlimin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məlumatları özündə əks etdirən konseptual sənəddir” Nöqtələrin yerinə uyğun sözü seçin.**
A) Fəal təlim
B) Fasilitator
C) Kurikulum
D) Kompetensiya

**17. Düzgün variantı seçin.**
A) Şagirdin fikri nəzərə alınmır, müəllim şərh edəndir
B) Şagirdin fikri əsasdır,dərs avtoritar rejimdədir
C) Müəllim fasilitator, şagird tədqiqatçı
D) Müəllim nitqi əsasdır, şagirdin fikri nəzərə alınmır

**18. Fəal təlimə xas xüsusiyyəti seç.**
A) Dərsdə səs-küy olduğu üçün problemlər yaranır.
B) Şagird özü tədqiqatçı olduğu üçün yorulur.
C) Şagirdin dərsə marağını artırır, axtarışlara sövq edir.
D) Müəllimin nitqi yorucu təsir edir.

**19. Bunlardan hansı *doğru deyil?***
A) Fəal təlimdə şagird təqiqatçıdır
B) Fəal təlimdə müəllim fasilitatordur
C) Fəal təlim avtoritar rejimdə reallaşır
D) Fəal təlimdə şagirdin dərsə marağı çox olur.

**20. Kurikulum termini nə vaxtdan Azərbaycanda istifadə olunur?**
A) 90-cı illərin əvvəli
B) 1912-ci ildən
C) 90-cı illərin axırı
D) 1956 –cı ildə

**21. Hansı qiymətləndirmə növündə şagirdlərin ilkin bacarıq və vərdişləri müəyyən olunur?**
A) Summativ
B) Formativ
C) Diaqnostik
D) Beynəlxalq

**22. Hər bir standart nəyə ayrılır?**
A) Meyara
B) Məqsədə
C) Alt standarta
D) Məzmun xəttinə

**23. Bunlardan hansı iş formalarına *aid deyil?***
A) Fəal iş
B) Kollektivlə iş
C) Cütlərlə iş
D) Qrupla iş

**24. Bunlardan hansı alt standartı *səciyyələndirmir?***
A) Əsas standartdakı məlumatı aydınlaşdırır
B) Təlim strategiyalarının seçilməsinə şərait yaradır
C) 2 rəqəmlə ifadə olunur
D) 3 rəqəmlə ifadə olunur

**25. Uyğunluğu müəyyən edin.**
1. Fənnin məzmunu
2. Təlim strategiyaları
3. Qiymətləndirmə nümunələrinin hazırlanması
a) Təhsil pillələri üzrə ümumi təlim nəticələri
b) Fənnin planlaşdırılmasına dair nümunələr
c) Kurikulum üzrə qiymətləndirmə
A) 1a, 2b, 3c
B) 1b, 2a, 3c
C) 1b, 2c, 3a
D) 1c, 2a, 3c

## TEST 16

**1. Aşağıdakı prinsiplərdən hansı tədris vahidlərinin və mövzuların ardıcıllığına *daxil deyil?***

A) Xronoloji
B) Sadədən mürəkkəbə
C) Şeirlərin ardıcıllığı
D) Məntiqi ardıcıllıq

**2. Azərbaycan Respublikasında hansı təhsil formaları tətbiq olunur?**

A) Formal, fərdi, informal
B) qeyri - formal, informal, özəl
C) Formal və qeyri - formal
D) Formal , qeyri - formal, informal

**3. Ənənəvi və müasir qiymətləndirmənin xüsusiyyətlərini seçin.**




1. Ənənəvi    2. Müasir
a. Cari qiymətləndirmə formal xarakter daşıyır. Müəllimin subyektiv rəyinə əsaslanır
b. Tədris prosesinin yalnız müəyyən bir hissəsində tətbiq edilir
c. Şagirdin nailiyyəti (qazanılan dəyərlər) qiymətləndirilir, inkişafı sistemli şəkildə izlənilir
d. Qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir və onu idarə edən vacib amil kimi meydana çıxır
e. Əsasən bilik səviyyəsi qiymətləndirilir

A) 1a b d; 2c e
B) 1b d; 2a c e
C) 1a b e; 2d c
D) 1a c; 2b d e

**4. Aşağıdakılardan hansıları Azəbaycan Respublikasında təhsilalma formalarına aiddir?**

1. Əyani
2. Dövlət
3. Distant (məsafədən)
4. Qiyabi
5. Özəl
6. Sərbəst

A) 1,2,5,6
B) 1,3,4,6
C) 1,4,5,6
D) 2,4,5,6

**5. Diaqnostik qiymətləndirmənin üsullarına aid olanları məntiqi ardıcıllıqla göstərin.**

1. Valideynlərlə və digər müəllimlərlə əməkdaşlıq
2. Müsahibə
3. Tapşırıqvermə

A) 3,2,1
B) 1,2,3
C) 2,3,1
D) 3,1,2

**6. Aşağıdakılardan hansı Azərbaycan Respublikasının əlavə təhsil istiqamətlərinə *aid deyil?***

A) Kadrların yenidən hazırlanması
B) Stajkeçmə və kadrların təkmilləşdirilməsi
C) İxtisasartırma
D) Ortayaşlıların təhsili

**7. "*2.1.3.İdman növlərinə (atletika, gimnastika) aid sadə hərəkətləri nümunələrə müvafiq təkrar edir*". Alt standartının fəaliyyət hissəsinin növünü və səviyyəsini müəyyənləşdirin:**

A) Psixomotor, təqlid etmək
B) İdraki, tətbiq etmək
C) Emosional, dəyərlərin daşıyıcısı olmaq
D) Psixomotor, hazır olmaq

**8. Azəbaycan Respublikasının ali təhsil müəssisələrində mütəxəssislər və elmi- pedaqoji kadrlar hazırlığının səviyyələri hansılardır?**

A) Bakalavr, magistr, aspirant
B) Bakalavriat (tibb təhsili istisna olmaqla), magistratura (tibb təhsili istisna olmaqla), doktorantura
C) Şagird, bakalavr, doktorant
D) Bakalavr, aspirant, magistr

**9. Təlimin 3 əsas məqsədlərindən biri olan inkişafetdirici məqsədə nail olmaq üçün təlimin iş formalarından qrup işi şagirdlərdə hansı bacarığı formalaşdırır?**

A) Fəallıq, adaptasiya, yaradıcılıq, müstəqil tədqiqat aparmaq
B) Fəallıq, vaxta qənaət əməkdaşlıq
C) Əməkdaşlıq,vaxta qənaət, bir-birinin fikrinə hörmətlə yanaşma.
D) Əməkdaşlıq, adaptasiya, fəallıq

**10. İnduktiv dərs növü nə zaman istifadə olunur?**

A) Mövzunun möhkəmləndirilməsi, dəqiqləşdirliməsi
B) Yeni mövzu keçirilən zaman
C) Tapılan faktların təqdimi
D) Yaradıcı tətbiqetmə zamanı

**11. Azərbaycan Respublikasının "Təhsil haqqında" qanunu nə vaxt qüvvəyə minib?**

A) 19 iyun 2010-cu il
B) 19 iyun 2011-ci il
C) 27 iyun 2007-ci il
D) 19 iyun 2009-cu il

**12. "Təhsil haqqında" qanun neçə fəsil və neçə maddədən ibarətdir?**

A) 6 fəsil, 40 maddədən
B) 7 fəsil, 47 maddədən
C) 6 fəsil, 47 maddədən
D) 7 fəsil, 40 maddədən

**13. Aşağıdakı anlayışlardan hansı fənn kurikulumuna *aid deyil?***
A) Məzmun standartı
B) Məzmun xətti
C) Ümumi təlim nəticələri
D) Həftəlik dərs saatlarının miqdarı

**14. Aşağıdakılardan hansı fənn kurikulumlarının səciyyəvi cəhətidir?**
A) Bilikyönümlüdür
B) Nəticəyönümlüdür
C) Müəllimyönümlüdür
D) Fənyönümlüdür

**15. Bunlardan biri əsas qiymətləndirmə növünə *aid deyil?***
A) Diaqnostik
B) Rüblük
C) Formativ
D) Summativ

**16. Aşağıdakılardan hansı biliyin kateqoriyasına aiddir?**
A) Psixomotor
B) Deklarativ
C) İdraki
D) Ünsiyyət

**17. Kurikuluma nə *daxil deyil?***
A) Təlim strategiyaları
B) Məzmun standartları
C) Təhsil qanunu
D) Qiymətləndirmə mexanizmləri

**18. Məzmun standartı neçə hissədən ibarətdir?**
A) 2
B) 1
C) 3
D) 5



**19. "Tələbyönümlülük" deyəndə nə nəzərdə tutulur?**
A) Məktəbin tələbatının nəzərə alınması.
B) Fərdin, cəmiyyətin və dövlətin dəyişən ehtiyac və tələbatlarının nəzərə alınması.
C) Şagirdin tələbatının nəzərə alınması.
D) Məktəbin və ailənin tələbatının nəzərə alınması.

**20. Aşağıdakılardan hansı təlimin təşkilinə verilən tələblərə *daxil deyil?***
A) Dəstəkləyici mühitin yaradılması
B) Fəaliyyətin stimullaşdırılması
C) Təlimdə bərabər imkanların yaradılması
D) Bilikyönümlülük

**21. Neçə təlim forması var?**
A) 8
B) 5
C) 4
D) 14

**22. Aşağıdakılardan hansı iş üsuludur?**
A) Klaster, müzakirə
B) Qruplarla, müsahibə
C) Bibö, cütlərlə
D) Cütlərlə, fərdi

**23. Perspektiv planlaşdırma hansı müddəti əhatə edir?**
A) Aylıq
B) İllik
C) Rüblük
D) Gündəlik

**24. Perspektiv planlaşdırma aparmaq üçün müəllim hansı bacarıqlara malik olmalıdır?**
1. Məzmun standartlarına əsasən dərslikdəki (dərslik olmayan fənlər üzrə müəllim vəsaitindəki) tədris vahidi və mövzular üzrə dəqiqləşmələr aparmaq.
2. Tədris vahidlərinin və mövzuların ardıcıllığını müəyyənləşdirmək.
3. İnteqrasiya imkanlarını müəyyən etmək.
4. Mövzuya uyğun motivasiyanı müəyyənləşdirmək.
A) 2, 3, 4
B) 1, 2, 3
C) 1, 3, 4
D) 1, 2, 4

**25. Uyğunluğu müəyyən edin.**
1. Milli kurikulum
2. Uşaq Hüquqları konvergensiyası
3. Azərbaycan Respublikasının Ümumtəhsil məktəbinin nümunəvi əsasnaməsi
a) 2006 b) 1989 c) 1993
A) 1a, 2b, 3c
B) 1b, 2a, 3c
C) 1b, 2c, 3a
D) 1c, 2a, 3c

**TEST 17**

**1. Aşağıdakılardan hansı ənənəvi qiymətləndirmə sisteminə aiddir?**

A) Cari qiymətləndirilmənin aradan qaldırılması məzmun standartlarının bütövlükdə mənimsənilməsini və qiymətləndirmənin obyektivliyini təmin edir.

B) Qiymətləndirmə şagirdə qiymət yazmaq kimi qəbul olunurdu, şagird yalnız qiymət almaq xatirinə oxuyurdu.

C) Şagirdin nailiyyəti (qazanılan dəyərlər) qiymətləndirilir, inkişafı sistemli şəklidə izlənilir.

D) Cari qiymətləndirilmənin aradan qaldırılması məzmun standartlarının bütövlükdə mənimsənilməsini və qiymətləndirmənin obyektivliyini təmin edir.

**2. Məktəbdaxili qiymətləndir-mənin neçə növü var?**

A) 2 B) 4 C) 5 D) 3

**3. Diaqnostik qiymətləndirmə hansı məqsədlə aparılır?**

A) Fənn üzrə təlimin hər hansı bir mərhələsində şagirdlərin ilkin bilik və bacarıq səviyyəsini qiymətləndirmək məqsədilə

B) Təlim prosesinin hər hansı bir mərhələsi üçün müəyyən olunmuş nəticələr əsasında şagirdlərin bilik və bacarıqlarının formalaşma səviyyəsini qiymətləndirmək məqsədilə

C) Təhsilin hər hansı mərhələsində (tədris vahidinin, yarımilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nailiyyətləri qiymətləndirmək məqsədilə

D) Şagirdin illik fəaliyyətini izləmək məqsədilə

Kurikulum 2015

**4. Diaqnostik qiymətləndirmədə istifadə olunan metod və vasitələr?**

A) Müşahidə, şagirdlərin şifahi cavabları , şagirdlərin yazı işlərinin təhlili , test tapşırıqlarının nəticələri

B) Müsahibə, söhbət, müşahidə, tapşırıqlar, valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq

C) Şifahi təqdimat, testlər, nailiyyətlərin nümayişi

D) Test tapşırıqları, layihə, çalışmalar

**5. Formativ qiymətləndirmədə istifadə olunan metod və vasitələr hansılardır?**

A) Müşahidə, şagirdlərin şifahi cavabları ,şagirdlərin yazı işlərinin təhlili , test tapşırıqlarının nəticələri

B) Müsahibə, söhbət, müşahidə, tapşırıqlar, valideynlərlə və digər fənn müəllimlərilə əməkdaşlıq

C) Şifahi təqdimat, testlər, nailiyyətlərin nümayişi

D) Müsahibə, söhbət, müşahidə, valideynlər və digər fənn müəllimləri ilə əməkdaşlıq

**6. Summativ qiymətləndirmədə istifadə olunan metod və vasitələr hansılardır?**
A) Müşahidə, şagirdlərin şifahi cavabları, şagirdlərin yazı işlərinin təhlili, test tapşırıqlarının nəticələri
B) Müsahibə, söhbət, müşahidə, tapşırıqlar, valideynlərlə və digər fənn müəllimlərilə əməkdaşlıq
C) Şifahi təqdimat, testlər, nailiyyətlərin nümayişi
D) Müsahibə, söhbət, müşahidə, valideynlər və digər fənn müəllimləri ilə əməkdaşlıq

**7. Qiymətləndirmə standartları neçə səviyyədə müəyyən olunur?**
A) 3 B) 6 C) 6 D) 4

**8. Aşağıdakılardan hansı təlim üsuludur?**
A) Qiymətləndirmə
B) Kompetensiya
C) Yazı işləri
D) Müzakirə

**9. İllik planlaşdırmaya hansı *daxil deyil?***
A) Standartlar
B) İnteqrasiya
C) Motivasiya
D) Resurslar

**10. Aşağıdakılardan hansı iş formasıdır?**
A) Müzakirə
B) Cütlərlə
C) Söz assosiasiyası
D) Debat

**11. Summativ qiymətləndirmə tapşırıqları hazırlanan zaman sualların çətinlik dərəcəsi necə paylaşdırırlır?**
A) Asan səviyyəli 20%, orta səviyyəli 40%, çətin səviyyəli 40%.
B) Asan səviyyəli 20%, orta səviyyəli 60%, çətin səviyyəli 20%.
C) Asan səviyyəli 40%, orta səviyyəli 40%, çətin səviyyəli 20%.
D) Asan səviyyəli 40%, orta səviyyəli r 20%, çətin səviyyəli 40%.

**12. Milli Kurikulum hazırlanarkən aşağıda göstərilən prinsiplərin hansı nəzərə *alınmamışdır?***
A) Tələbyönümlük
B) Nəticəyönümlük
C) Subyektivlik
D) Şəxsiyyətyönümlük

**13. İbtidai təhsil səviyyəsində neçə fənn tədris olunur?**
A) 10 B) 9 C) 11 D) 12

**14. Kurikulumlarda fənnin məzmunu necə verilmişdir?**
A) Bacarıqlar şəklində ifadə edilən təlim nəticələri- standartlar formasında
B) Qimətləndirmə standartları şəklində ifadə edilən təlim nəticələri- standartlar formasında
C) Biliklər şəklində ifadə edilən təlim nəticələri -standartlar formasında

D) Oyun və fəaliyyət şəklində ifadə edilən təlim nəticələri - standartlar formasında

**15. Kurikulumda məzmun standartı nədir?**
A) Şagirdlərin bilik və bacarıq səviyyəsini qiymətləndirmək üçün konkret ölçülərdir.
B) Təhsilin müəyyən mərhələsində şagirdlərin və müəllimlərin bilik və bacarıq səviyyəsinə qoyulan dövlət tələbidir
C) Təhsilin müəyyən mərhələsində şagirdlərin bilik və bacarıq səviyyəsinə qoyulan dövlət tələbidir
D) Yalnız şagird fəaliyyətinin mərhələlərini əhatə edir

**16. Aşağıdakı ifadələrdən hansılar alt-standartlara *aid deyil?***
A) Əsas standartın tərkib hissəsi olub ona xidmət edir
B) Təlimin müxtəlif mərhələləri üzrə şagirdlərin inkişafını izləməyə imkan verir
C) Təlim prosesinin planlaşdırılması və qurulmasını istiqamətləndirir
D) Təhsil pillələri üzrə dəyişməz qalır

**17. "4.1.4. Ədədin kəmiyyətin göstəricisi olduğunu başa düşdüyünü nümayiş etdirir". Bu standart hansı bilik və fəaliyyət növünə aiddir?**
A) Deklorativ bilik, bilik – idraki fəaliyyət
B) Kontekstual bilik – psixomator fəaliyyət
C) Prosedural bilik – idraki fəaliyyət
D) Deklorativ və kontekstual bilik

**18. Təlim strategiyaları seçilərkən aşağıdakıların hansı nəzərə *alınmır?***
A) Qiymətləndirmə standartları
B) Fənnin məqsədləri
C) Valideynin arzusu
D) Fənnin məqsəd və vəzifələri

**19. Fənn kurikulumlarında təlim strategiyalarına nə *daxil deyil?***
A) Fənnin təliminə verilən əsas tələblər
B) Təlimin təşkilində istifadə olunan forma və üsullar
C) Fənn üzrə təlimin planlaşdırılması
D) Kurikulum islahatının mərhələləri

**20. Təlim üsullarını seçin.**
1. Müzakirə 2. Qeyri -standart dərs 3. Beyin həmləsi 4. Kiçik qruplarla iş 5. Venn diaqramı 6. Debatlar 7. Dərs oyun
A) 1, 3, 5, 6 B) 1, 2, 4, 6
C) 1, 4, 5, 7 D) 3, 4, 5, 6

**21. Təhsildə qiymətləndirmə nədir?**
A) Təhsil prosesində şagird nailiyyətlərinin beynəlxalq tələblərə uyğun müvafiq rəqəmlərlə ölçülməsi
B) Təhsil prosesində nailiyyətlərin müəyyən olunmuş keyfiyyət

səviyyəsinə uyğunluğunun obyektiv, etibarlı vasitələrlə ölçülməsidir.
C) Təhsil prosesində nailiyyətlərin müəyyən olunmuş keyfiyyət səviyyəsinə uyğunluğunun müəllimin seçdiyi kriteriyalarla ölçməsi.
D) Təhsil prosesində nailiyyətlərin müəyyən olunmuş keyfiyyət səviyyəsinə uyğunluğunun yalnız testlərlə ölçülməsidir

**22. Hansı məktəbdaxili qiymətləndirmənin növlərinə *aid deyil?***
A) Diaqnostik qiymətləndirmə
B) Formativ qiymətləndirmə
C) Summativ qiymətləndirmə
D) Milli qiymətləndirmə

**23. Summatıv qiymətləndirmə nə vaxt *aparılmır?***
A) Yarımilin sonunda
B) Dərs ilinin əvvəlində
C) Ayın sonunda
D) Bölmə başa çatdıqda

**24. Qiymətləndirmə standartları nədir?**
A) Təhsilin müəyyən mərhələsində şagirdlərin və müəllimlərin nailiyyət səviyyəsinə qoyulan tələb.
B) Tədris ilinin sonunda şagirdlərin nailiyyət səviyyəsinə və məktəbin fəaliyyətinə qoyulan dövlət tələbidir.
C) Təhsilin müəyyən mərhələsində şagirdlərin nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir.
D) Şagird və müəllimlərin bilik və bacarıqlarına qoyulan tələb

**25. Uyğunluğu müəyyən edin.**
1. Diaqnostik qiymətləndirmə
2. Formativ qiymətləndirmə
3. Summativ qiymətləndirmə
a) Bu qiymətləndirmənin nəticələri rəsmi qeyd olunmur
b) Bu qiymətləndirmə davamlı və səmərəli əks əlaqə mexanizmdir
c) Kiçik və böyük qiymətləndirmə
A) 1a, 2b, 3c
B) 1b , 2c , 3a
C) 1b, 2a, 3c
D) 1c , 2b , 3a

Kurikulum 2015

## TEST 18

**1. Qeyd olunan bəndlərdən hansı qiymətləndirmə standartıdır?**

A) 3.4.1.Q1.Borc analayışını izah etməyi bacarır.

B) 3.4.1. Mənəvi borc (böyüklərə hörmət, kiçiklərə və xəstələrə qayğı) haqqında təsəvvürlərini ifadə edir.

C) 3.3.2. Dinlər haqqında ilkin təsəvvürlərini sadə şəkildə izah edir.

D) 3.2.2. Mənəviyyata zidd xüsusiyyətlərə (yalançılıq, paxıllıq, xəbərçilik) münasibət bildirir.

**2.Test nümunələri nəyin əsasında hazırlanır?**

A) Əsas standartların

B) Qiymətləndirmə standartlarının

C) Alt standartların

D) Əsas və alt standartların

**3. "Beyin həmləsi" nədir?**

A) İş üsulu

B) Dərs forması

C) Təlim üsulu

D) Dərs nümunəsi

**4. Aşağıdakılar hansı komponentlərə daxildir?**

Psixomotor; Hərəki

Emosioanal; Affektiv

İdraki; Konqnitiv

A) Bilik

B) Fəaliyyət

C) Məzmun standartı

D) Məzmun xətti



**5. Məzmun standartının quruluşu hansıdır?**

A) Bilik. Fəaliyyət. Vərdiş.

B) Bacarıq. Vərdiş.

C) Bilik. Fəaliyyət.

D) Fəaliyyət. Vərdiş.

**6. Üç dost nəyi xoşladıqları haqqında söhbət edir. Anar deyir: "Mən bağda gəzməyi, quşların şən nəğmələrini dinləməyi, heyvanlara qulluq etməyi çox xoşlayıram". Vüsal deyir: " Mən idmanı çox sevirəm. Məktəbimizdəki idman dərnəyinə yazılmışam". Elnur isə deyir:"Mən isə internetdə işləməyi çox xoşlayıram. Internet vasitəslə müxtəlif filmlərə baxmaq, maraqlandığın hər şeyin şəklini tapmaq mümkündür".dostların dərketmə üsullarını müəyyən edin.**

A) Anar- naturalistik, Vüsal - bədən/kinestik, Elnur - vizual/məkan

B) Elnur- linqvistik, Anar - emosional, Vüsal - vizual/məkan

C) Vüsal - psixomotor, Elnur - idraki, Anar - emosional

D) Vüsal- naturalistik, Anar - kinestik, Elnur – məkan

**7. Biliyin növləri hansıdır?**
A) Təlim. Bacarıq. Vərdiş.
B) Məntiqi. Yaradıcı. Tənqidi.
C) Motivasiya. İnteqrasiya. Karusel D) Deklarativ. Prosedural. Kontekstual

**8. BİBÖ abveturası nə bildirir?**
A) Bilmək İstəyirəm. Bildim. Öyrəndim.
B) Bilmirəm. İstəyirəm bilim. Öyrənərdim.
C) Bilmədiklərim.İstəyirəm bilim. Öyrənərdim.
D) Bilirəm. İstəyirəm bilim. Öyrəndim.

**9. Blumun taksonomiyası nəzəriyyəsinə görə dərketmənin səviyyələri hansıdır?**
A) bilik, qavrama , tətbiq, təhlil, sintez , qiymətləndirmə
B) bilik, tətbiq, təhlil, qiymətləndirmə, sintez
C) bilik, təhlil, sintez , tətbiq, qiymətləndirmə
D) bilik, tətbiq, qavrama , təhlil, sintez, qiymətləndirmə

**10. Fəal təlim nəyə əsaslanır?**
A) Təfəkkürün inkişafına. Təfəkkürün müstəqillik və sərbəstliyinə. Əməkdaşlığa.
B) Biliklərin yaradıcı tətbiqinə. Şagirdin fəal dərketmə mövqeyinə. Problemli şəraitin yaranmasına
C) Biliklərin müstəqil əldə edilməsi üçün şəraitin yaradılmasına.
D) Hamısına.



**11.Təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri hansılardır?**
A) Humanistlik. Demokratiklik. Millilik və dünyavilik. Humanistlik. İnteqrasiya.
B) Humanistlik. Demokratiklik. Bərabərlik. Millilik və dünyavilik. Keyfiyyətlilik. Səmərəlilik. Daimilik. Varislik. Liberallaşma. İnteqrasiya
C) Demokratiklik. Bərabərlik. Millilik və dünyəvilik. Keyfiyyətlilik. Humanistlik. İnteqrasiya. Məsuliyyət.
D) Humanistlik. Millilik və dünyəvilik. Keyfiyyətlilik. Səmərəlilik. Daimilik. İnteqrasiya. Kurikulum. İnteqrasiya.

**12. Aşağıdakılardan təhsilalma forması deyil?**
A) Sərbəst B) Əyani
C) Özəl D) Məsafəli

**13. Təlim üsullarını seçin.**
1. Müzakirə 2. Qeyri - standart dərs 3. Beyin həmləsi 4. Kiçik qruplarla iş 5. Venn diaqramı 6. Debatlar 7. Dərs oyun
A) 1, 3, 5, 6 B) 1, 2, 4, 6
C) 1, 4, 5, 7 D) 3, 4, 5, 6

**14. Təhsildə qiymətləndirmə nədir?**
A) Təhsil prosesində şagird nailiyyətlərinin beynəlxalq tələblərə uyğun müvafiq rəqəmlərlə ölçülməsi
B) Təhsil prosesində nailiyyətlərin müəyyən olunmuş keyfiyyət

səviyyəsinə uyğunluğunun obyektiv, etibarlı vasitələrlə ölçülməsidir.
C) Təhsil prosesində nailiyyətlərin müəyyən olunmuş keyfiyyət səviyyəsinə uyğunluğunun müəllimin seçdiyi kriteriyalarla ölçməsi.
D) Təhsil prosesində nailiyyətlərin müəyyən olunmuş keyfiyyət səviyyəsinə uyğunluğunun yalnız testlərlə ölçülməsidir

**15. Qeyd olunan bəndlərdən hansı qiymətləndirmə standartıdır?**
A) 3.4.1.Q1.Borc analayışını izah etməyi bacarır.
B) 3.4.1. Mənəvi borc (böyüklərə hörmət, kiçiklərə və xəstələrə qayğı) haqqında təsəvvürlərini ifadə edir.
C) 3.3.2. Dinlər haqqında ilkin təsəvvürlərini sadə şəkildə izah edir.
D) 3.2.2. Mənəviyyata zidd xüsusiyyətlərə (yalançılıq, paxıllıq, xəbərçilik) münasibət bildirir.

**16. Hansı bənddə fənn kurikulumunun strukturu düzgün göstərilmişdir?**
A) Fənnin məzmunu, təlimin təşkilinə verilən tələblər, qiymətləndirmə
B) Giriş, fənnin məqsədi və vəzifələri, fənnin xarakterik xüsusiyyətləri, fənnin məzmunu, təlim strategiyaları, şagird nailiyyətlərini qiymətləndirmə
C) Məzmun xətləri, forma və üsullar, təlim strategiyası, qiymətləndirmə vasitələri
D) Məzmun standartları, təlim strategiyası, qiymətləndirmə vasitələri



**17. Aşağıdakılardan hansı ənənəvi qiymətləndirmə sisteminə aiddir?**
A) Cari rəqəmli qiymət yazmadar imtina edilməsi məzmunun bütövlükdə mənimsənilməsini təmin edir.
B) Şagirdin nailiyyəti (qazanılan dəyərlər) qiymətləndirilir, inkişafı sistemli şəkildə izlənilir.
C) Qiymətləndirmə şagirdə qiymət yazmaq kimi qəbul olunurdu, yüksək rəqəmli qiymət şagirdlərin əsas stimullarından biri idi.
D) Qiymətləndirmə standartlarının təyin edilməsi qiymətləndirmənin obyektivliyini təmin edir.

**18. Diaqnostik qiymətləndirmənin üsul və vasitələri kim tərəfindən hazırlanır?**
A) Müəllim
B) Rektor
C) Metodbirləşmə üzvləri
D) Təhsil Nazirliyi
E) Təhsil idarəsi

**19. Aşağıdakı prinsiplərdən hansı tədris vahidlərinin və mövzuların ardıcıllığına *aid deyil?***
A) Kiçikdən böyüyə
B) Sadədən mürəkkəbə
C) Xronoloji
D) Məntiqi ardıcıllıq

**20. Fəal interaktiv təlim nə deməkdir?**
A) Şagirdlərin fəal idrak fəaliyyətinə əsaslanan təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlığı həyata keçirən təlim
B) Şagirdlərdə problemin həllinə yönələn təlim
C) Hər bir şagirdin nəaliyyətini formalaşdıran təlim
D) Zəif oxuyan şagirdləri fəallaşdıran təlim

**21.Təlim standartlarına uyğunluq, mübahisəli faktların olmaması, faktların dəqiqliyi, orfoqrafik, durğu işarələri və qrammatik qaydaların gözlənilməsi dərsliyə verilən hansı tələbin xüsusiyyətləridir?**
A) Düzgünlük B) Əyanilik
C) Tamlıq D) Ardıcıllıq

**22. Havard Qardner nəzəriyyəsinə görə dərketmənin neçə üsulu var?**
A) 2 B) 8 C)5 D) 3

**23. Müəllim şagirdlərə "Mənim ailəm" mövzusunda şifahi mətn qurmağı tapşırdı. Hansı dərketmə üsuluna aid olan şagird bu tapşırığın icrasında daha uğurlu nəticə göstərə bilər?**
A) Linqvistik dərketmə
B) Vizual/məkan
C) Naturalistik/təbiət
D) Vizual/təbiət

Kurikulum 2015

**24. Təklikdə öyrənmək vərdişləri nümayiş etdirir, qarşısındakı insanın kim olduğunu, nə edə biləcəyini və nə etmək istədiyini bilir. Qeyd olunanlar hansı dərketmə üsulunu xarakterizə edir?**
A) Linqvistik dərketmə
B) Fərddaxili
C) Fərdlərarası
D) Məntiqi riyazi

**25. Pedaqogikada tərbiyə anlayışları və onlar arasındakı uyğunluqları tapın.**
1 - Tərbiyə
2 - Özünütərbiyə
3 - Yenidən tərbiyə
a) Yaranmış mənfi keyfiyyətləri aradan qaldırmaq, əvəzində müsbət sifətlər aşılamaq;
b) Uşaq mühitin mənfi təsirinə məruz qaldıqda korlanır, xoşagəlməz keyfiyyətlərə yiyələnir;
c) Özünütərbiyənin mahiyyəti, məzmunu, üsul və vasitələri müxtəlif yaş dövrlərində fərqli olur;
d) Adamın özünü saflaşdırmasıdır - xarakterini müsbət mənada dəyişmək, öz üzərində məqsədyönlü işləməkdir;
e) Tərbiyənin əsas tərkib hissələrini birləşdirir və onların hər birinin məqsədi, məzmunu və vəzifələri var və onlar bir - birilə sıx əlaqədədirlər.
A) 1a; 2b; 3e
B) 1b; 2c; 3d
C) 1e; 2d; 3a
D) 1c; 2a; 3b

## TEST 19

**1. Dərsliklərə verilən tələblər hansılardır?**
1. Düzgünlük 2. Şüurluluq
3. Əyanilik 4. İfadəlilik
5. Mənbələrin göstərilməsi
6. Fəal təlim üçün şəraitin yaradılması
A) 1, 3, 4, 6 B) 2, 3, 4, 5
C) 1, 3, 5, 6 D) 2, 3, 4, 6

**2. Fənn kurikulumunun təlim strategiyaları bölməsi hansı məsələləri əhatə edir?**
A) Məzmun standartları, təlim üsulları və qiymətləndirmə standartları
B) Təlimin təşkilinə verilən tələblər, təlim fəaliyyətinin planlaşdırılması və məktəbdaxili qiymətləndirmə
C) Təlimin forma və üsulları, təlimin təşkilinə verilən tələblər və təlim fəaliyyətinin planlaşdırılması
D) Məzmun xətti, məzmun standartı, təlim üsulları

**3. Pedaqoji prosesin tamlığı nədir?**
A) Təlim məqsədləri kompleks (inkişafetdirici, öyrədici, tərbiyəedici) şəkildə həyata keçirilir, real nəticələrlə yekunlaşan müəllim və şagird fəaliyyətini əhatə edir.
B) Pedaqoji proses münasib maddi-texniki baza əsasında və sağlam mənəvi-psixoloji mühitdə təşkil edilir.
C) Tədris və təlim işi şagirdlərin maraq və tələbatlarının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir.
D) Tədris şagirdlərin istedad və qabiliyyətlərinin potensial imkanlarının inkişafına yönəldilir.



**4. Təlim üsullarını seçin.**
1. BİBÖ 2. Qrup işi 3. Karusel
4. Kollektivlə iş 5. Auksion
6. ziqzaq 7. cütlərlə iş
A) 1,2, 4, 7 B) 2, 4, 7
C) 1,3, 5, 6, D) 1, 2, 4, 6

**5. Təhsil taksonomiyaları hansılardır?**
A) İdraki, emosional, psixomotor
B) Deklorativ, emosional, idraki
C) Psixomotor, prosedural, koqnitiv
D) İdraki, kontekstual, emosional

**6. "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" nə vaxt təsdiq edilmişdir?**
A) 30 oktyabr 2006-cı il
B) 26 aprel 1999-cu il
C) 3 iyun 2010-cu il
D) 19 iyun 2010-cu il

**7. Biri kurikuluma aid deyil.**
A) Kurikulum təlim prosesini əks etdirən sənəddir
B) Kurikulum – təlim prosesi ilə bağlı bütün fəaliyyətləri əks etdirən konseptual sənəddir

C) Kurikulum nəyin və hansı müddətdə öyrədiləcəyini əks etdirən sənəddir
D) Kurikulum mənşəcə latın sözü olub lüğəti mənası "yol", "istiqamət" deməkdir.

**8. "Bu növ кurikulum fənn sahələri üzrə təlimin asanlaşdırılmasına xidmət edir. Bu, əкsər hallarda əsas təlim məqsədləri ətrafında cəmləşir və ayrı-ayrı fənlərlə bağlı biliкləri əhatə edir." Qeyd olunan fikir kurikulumun hansı növü haqqındadır?**
A) İnteqrasiya olunmuş кurikulum
B) Qeyri-rəsmi кurikulum
C) Fənlərə əsaslanan кurikulum
D) Əhatəli кurikulum

**9. Müasir fənn kurikulumlarının səciyyəvi xüsusiyyətlərini seçin.**
1. Bilikyönümlüdür
2. Şəxsiyyətyönümlüdür
3. Müəllimyönümlüdür
4. Təklifyönümlüdür
5. Tələbyönümlüdür
6. Şagirdyönümlüdür
A) 1, 3, 4, 6 B) 2, 5, 6
C) 1, 2, 4, 6 D) 3,5,6

**10. Fənn kurikulumlarının strukturunu müəyyənləşdirin.**
A) Giriş, fənnin məqsəd və vəzifələri, fənnin xarakterik xüsusiyyətləri, fənnin məzmunu, təlim strategiyaları
B) Giriş, fənnin məqsəd və vəzifələri, fənnin xarakterik xüsusiyyətləri, fənnin məzmunu, təlim strategiyaları, şagird nailiyyətlərinin qiymətləndirilməsi
C) Ümumi təlim nəticələri, məzmun xətləri, məzmun standarltları
D) Ümumi təlim nəticələri, məzmun xətləri, müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair nümunələr

**11. Aşağıdakılardan biri səhvdir.**
A) Məzmun xətti dəyişməzdir
B) Alt-standart dəyişməzdir
C) Əsas standart əsasən dəyişməzdir
D) Alt-standart daim dəyişir

**12. Biri alt standartın funksiyası *deyil.***
A) Təlim məqsədlərinin dəqiq müəyyən olunması üçün etibarlı zəmin yaradır
B) Təlim strategiyalarının düzgün seçilməsində mühüm rol oynayır
C) Fənlər üzrə müəyyən olunan təlim nəticələrini məzmun xətləri üzrə ümumi şəkildə ifadə edir
D) Təlimin məzmununun davamlı inkişafını təmin edir.

**13. Bilik və fəaliyyət hissəsi səhv göstərilmiş standartı müəyyən et:**
A) 2.2.5. **Mətnin əsas hissələrini seçib** nəql edir.
B) 4.1.4. **Cəm şəkilçisinin yazılışı və tələffüzü ilə bağlı qaydaları** nitqində tətbiq edir

C) 2.2.1. **"Doğru" və "yalan" mülahizələri** fərqləndirir.
D) 1.1.3. **20 dairəsində ədədləri** oxuyur və yazır.

**14. Bilik və fəaliyyət hissəsi düzgün göstərilmiş standartı müəyyən edin.**
A) 3.1.2. Əşyanın fəzada vəziyyətini müəyyənləşdirir
B) 3.3.2. Dinlər haqqında ilkin təsəvvürlərini sadə şəkildə izah edir.
C) 2.1.1 " Fərd", "ailə" və" kollektiv" anlayışlarını müqayisə etməklə fərqləndirir.
D) 2.1.3. Texnoloji vasitələr haqqında kiçik təqdimatlar edir.

**15. Fəaliyyətin icrasına dair prosedur qaydaları əhatə edən biliklər hansı kateqoriyaya aiddir?**
A) Koqnitiv B) Kontekstual
C) Prosedural D) Deklarativ

**16. Məlumat xarakterli biliklər hansı kateqoriyaya aiddir?**
A) Koqnitiv B) Kontekstual
C) Prosedural D) Deklarativ

**17. Azəbaycan Respublikasında təhsil pillələri və səviyyələri hansı ardıcıllıqla müəyyən olunur?**
1. İbtidai təhsil
2. Ümumi orta təhsil
3. Orta ixtisas təhsili
4. Bakalavriat
5. Magistratura
6. Doktorantura
7. İlk peşə ixtisas təhsili
8. Tam orta təhsil
9. Məktəbəqədər təhsil
A)1,2,9,8,4,3,5,6,7
B) 1,2,5,8,9,6,7,4,3
C) 9,1,2,8,4,3,7,5,6
D) 9,1,2,8,7,3,4,5,6

**18.** ***"2.1.1. Mötərizəli və mötərizəsiz ədədi ifadələri oxuyur və yazır".*** Alt standartının fəaliyyət hissəsinin növünü və səviyyəsini **müəyyənləşdirin:**
A) İdraki, bilik
B) İdraki, anlama
C) Emosional, təşkil etmək
D) Psixomotor, mexanizmini bilmək

**19. Verilmiş standarta uyğun təlim məqsədini müəyyən edin:** ***"1.3.1. Canlılar aləminə aid olan varlıqları (bitki, heyvan, insan) tanıyır".***
A) Heyvanlara qulluq qaydalarını bilir.
B) Canlılarla cansızların fərqini sadə şəkildə izah edir.
C) Heyvanlar aləminə aid varlıqları tanıyır.
D) Canlıların yaşaması üçün lazım olan amilləri sadalayır.

**20. "Ucadan düşün" strategiyasının fəaliyyət ardıcıllığı hansı bənddə düzgün verilmişdir?**
A) İlkin biliklərini müəyyənləşdirmək, əlaqələndirmək, sual vermək,

məqsədi müəyyənləşdirmək,dərk etməni yoxlamaq, təsəvvür etmək, uşaqaların münasibətini öyrənmək və dəstəkləyici fikirlər əlavə etmək;
B) İlkin biliklərini müəyyənləşdirmək, əlaqələndirmək, sual vermək, sualların növlərini müəyyən etmək, sualları təsnif etmək, sualları yaratmaq;
C) İdraki və yüksək idraki bacarıqları əlaqələndirir, təşkilati işarələrdən istifadə edir, düşünmənin üç mərhələsinə cəlb edilir, yeni məlumatları mövcud bilikləri ilə əlaqələndirir.
D) İlkin biliklərini müəyyənləşdirmək, əlaqələndirmək, idraki və yüksək idraki bacarıqları əlaqələndirir,

**21.** *3.1.3. Yemək masası ətrafında davranış bacarıqlarını nümayiş etdirir* alt standartının fəaliyyət hissəsinin növünü və səviyyəsini **müəyyənləşdirin.**
A) İdraki, tətbiq
B) Emosional , dəyərlərin daşıyıcısı olmaq
C) Emosional, təşkil etmə
D) Psixomotor, mexanizm

**22. Azəbaycan Respublikasında mülkiyyət növünə görə hansı təhsil müəssisələri fəaliyyət göstərir?**
A) Dövlət, özəl
B) Dövlət, bələdiyyə
C) Bələdiyyə, özəl, ödənişli
D) Dövlət, bələdiyyə, özəl



**23. "Bu üsul mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə imkan yaradır. Şagirdlər dörd nəfərlik qruplara bölünür (əsas qrup). Qruplardakı şagirdlər yenidən nömrələnir. Hər qrupdakı eyni rəqəmli şagirdlərdən yeni qrup (ekspert qrupu) yaradılır.Öyrəniləcək mətn qrupların sayı qədər hissələrə bölünür və ekspert qruplarına verilir". Haqqında danışılan təlim üsulunu müəyyən edin.**
A) Ziqzaq B) Karusel
C) BİBÖ D) Qərarlar ağacı

**24. Məqsədinə uyğun olaraq diaqnostik qiymətləndirmənin formalarını müəyyən edin.**
1. Davamlı 2. Əyani
3. Sistematik 4. Qısamüddətli
5. Tələbyönümlü
A) 1, 4 B) 1, 5 C) 2, 4, 5
D) 1, 2, 3, 4 E) 1, 4, 5

**25. Uyğunluğu müəyyən edin.**
1. Fənnin məzmunu
2. Təlim strategiyaları
3. Qiymətləndirmə nümunələrinin hazırlanması
a) Təhsil pillələri üzrə ümumi təlim nəticələri
b) Fənnin planlaşdırılmasına dair nümunələr
c) Kurikulum üzrə qiymətləndirmə
A) 1a; 2b; 3c
B) 1b; 2a; 3c
C) 1b; 2c; 3a
D) 1c; 2a; 3c

TEST 20

**1.Hovard Qardnerin "Müxtəlif üsullarla dərketmə" nəzəriyyəsinə əsasən verilmiş fikirlərdən biri səhvdir.**

A) İnsanlar düşünməyə müxtəlif üsullarla cəlb edilirlər;
B) Düşünmə üsulunun düzgün müəyyən edilməsi dərketmə səviyyəsinə təsir edir;
C) İnsanlar ən azı bir formaya görə daha güclü dərketmə imkanına malikdirlər;
D) Hər bir insan dərketmənin yalnız bir üsulunun daşıyıcısıdır.

**2. Şagirdin fəaliyyətini izləmək, potensial imkanlarını müəyyənləşdirmək və inkişaf etdirmək məqsədi daşıyır. Bu təlim forması şagirdin sərbəst düşünməsi üçün real imkanlar yaradır. Qeyd olunan fikirlər təlimin təşkilinin hansı formasına aiddir?**

A) Karusel B) Qrup işi
C) Fərdi iş D) BİBÖ

**3. Şagirdlər təlim tapşırıqlarını birgə yerinə yetirirlər. Bu dərs forması şagirdlərə daha yaxından əməkdaşlıq etməyə və ünsiyyət qurmağa, məsuliyyəti bölüşməyə optimal imkan yaradır. Qeyd olunan fikirlər təlimin təşkilinin hansı formasına aiddir?**

A) Karusel B) Kollektivlə iş
C) Fərdi iş D) Cütlərlə iş



**4. Tədris və təlim işi şagirdlərin maraq və tələbatlarının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir. Qeyd olunan fikir təlimin təşkilinə verilən tələblərindən hansının şərhidir?**

A) Pedaqoji prosesin tamlığı
B) Təlimdə dəstəkləyici mühitin yaradılması
C) Təlimdə bərabər imkanların yaradılması
D) Şagirdyönümlülük

**5. Təhsil taksonomiyaları haqqında fikirlərdən biri *səhvdir*.**

A) Taksonomiya təlim məqsədlərinin ardıcıllığını və əlaqəliliyini təmin edir;
B) Taksonomiya qısa müddətdə böyük həcmli materialı öyrənmək imkanı verir;
C) Taksonomiya təlimin keyfiyyətini yüksəldir;
D) Taksonomiya təlimin konqruentliyinə əminlik yaradır;

**6. Strategiya ilə oxuyan hansı bacarıqlara yiyələnir?**

1. Kiçik və böyük idraki fəaliyyətlər vasitəsi ilə öyrənir.
2. Müxtəlif yazı üslubları haqqında bilikləri olur.
3. Öyrənmək məqsədi ilə başqaları ilə əməkdaşlıq edir.
4. Yeni bilikləri əvvəlki biliklərlə əlaqələndirir.
5. Tanıdığı sözlər vasitəsi ilə mətnin mənasını dərk edir.

A) 1, 3, 4 B) 1, 2, 4,
C) 3, 4, 5 D) 1,3,5

**7. Strategiya ilə oxuyan oxucu məqsədləri müəyyənləşdirərkən əsasən hansı üsuldan istifadə edir?**

A) Ziqzaq B) Karusel
C) BİBÖ D) Akvarium

**8. Biri mikroidraki bacarıq *deyil*.**

A) Bilmək
B) Anlamaq
C) Qərar qəbul etmək
D) Analiz

**9. Biri makroidraki bacarıqdır.**

A) Tətbiq etmək
B) Təhlil etmək
C) Problemi həll etmək
D) Dəyərləndirmək

**10. Fənn kurikulumları əsasında təlimin planlaşdırılmasının neçə növü var?**

A) 1 B) 2 C) 3 D) 4

**11. Diaqnostik qiymətləndirmə aparmaqda müəllimin məqsədi nədən ibarətdir?**

A) Təlim strategiyasını müəyyən etmək
B) Şagirdlərin maraq və tələbatlarını nəzərə almaq
C) Şagirdlərin irəliləməsinin və ya geriləməsinin monitorinqini aparır.
D) Təlim texnologiyalarından istifadə etmək
E) Fəal təlim metodlarından istifadə etmək



**12. Perspektiv planlaşdırma aparmaq üçün müəllim hansı bacarıqlara malik olmalıdır?**

1. Məzmun standartlarına əsasən dərslikdəki (*dərslik olmayan fənlər üzrə müəllim vəsaitindəki*) tədris vahidi və mövzular üzrə dəqiqləşmələr aparmaq.
2. Tədris vahidlərinin və mövzuların ardıcıllığını müəyyənləşdirmək.
3. İnteqrasiya imkanlarını müəyyən etmək.
4. Mövzuya uyğun motivasiyanı müəyyənləşdirmək.
5. Əlavə resurslar seçmək.

A) 2, 3, 4,5 B) 1,3, 4,5
C) 1, 2, 3,5 D) 1, 2, 4,5

**13. Aşağıdakılardan hansılar <u>nümunəvi perspektiv planlaşdırma sxemi</u> nə aiddir.**

1. Tədris vahidi
2. Motivasiya yaratmaq
3. Mövzular
4. Standratlar
5. İnteqrasiya
6. Tədqiqat sualının qoyuluşu
7. Tarix

A) 1,3,4,5,7 B) 1,2,4,5,6
C) 1,3,5, 6, 7 D) 1, 2, 3, 4, 5

**14. Aşağıdakı prinsiplərdən hansı tədris vahidlərinin və mövzuların ardıcıllığına *daxil deyil?***

A) Xronoloji
B) Sadədən mürəkkəbə
C) Əlaqəlilik
D) Məntiqi

**15. Aşağıdakılardan hansı fəal dərsin mərhələləridir?**
1. Motivasiya, problemin qoyuluşu
2. Tədqiqatın aparılması
3. Məlumat mübadiləsi
4. Ev tapşırığının yoxlanılması
5. Məlumatların müzakirəsi
6. Nəticələrin çıxarılması
7. Yeni mövzunun izahı
8. Yaradıcı tətbiq etmə
9. Yeni dərsin möhkəmləndirilməsi üçün sual və tapşırıqlar
10. Qiymətləndirmə (məqsədə görə müəyyən mərhələdən sonra aparıla bilər)
A) 1, 2, 3, 5, 6, 8,10
B) 2, 3,4,5,7,8,9
C) 1,4,6,7,8,9,10
D) 3,4,6,7,8,9,10

**16. Gündəlik planlaşdırma nümunəsinə aşağıdakılardan hansı *aid deyil?***
A) Mövzu
B) İnteqrasiya
C) Tədris vahidi
D) Təlim üsullar

**17. Diaqnostik qiymətləndirməyə aid olan cəhətləri seçin.**
1. Şagirdin bilik və bacarığını müəyyən edir.
2. Şagirdi sosial həyata hazırlayır.
3. Şagirdlərdə təbiətə şüurlu münasibət yaradır.
4. Təlimin düzgün qurulmasında müəllimə kömək edir.
5. Müəllim - şagird arasında mədəni davranışın əsasını qoyur.
A) 1, 4 B) 2, 4
C) 1, 5 D) 1, 5



**18. Aşağıdakı fikirlərdən biri informasiya mübadiləsi mərhələsinə aiddir.**
A) Bu mərhələdə iştirakçılar tədqiqatın gedişində əldə etdikləri tapıntıların, yeni informasiyanın mübadiləsini aparırlar.
B) Fəal dərsin dördüncü mərhələsidir.
C) Hər hansı bir fəaliyyətə təhrik edən vasitədir.
D) Biliklərin mənimsənilməsinin başlıca meyarı onun yaradıcı surətdə tətbiqidir.

**19. Aşağıdakı fikirlərdə hansı tədqiqatın aparılması mərhələsinə aiddir.**
A) İnsan təfəkkürünü hərəkətə gətirən və şagirdlərin idrak fəallığına təkan verən prosesdir.
B) Bu mərhələdə iştirakçılar tədqiqatın gedişində əldə etdikləri tapıntıların, yeni informasiyanın mübadiləsini aparırlar.
C) Dərsdə əldə edilmiş bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsi məqsədini güdən sərbəst iş formasıdır.
D) Bu zaman yeni faktların öyrənilməsi və bu suallara cavabların tapılması gedişində düşünmək və yeni bilgiləri kəşf etmək üçün münasib şərait yaranır.

**20. Aşağıdakı fikirlərdə hansı yaradıcı tətbiqetmə mərhələsinə *aid deyil.***
A) Şagirdlərin idrak fəallığına təkan verən prosesdir.

B) Biliklərin mənimsənilməsinin başlıca meyarıdır.
C) Biliyi möhkəmləndirir, onun praktiki əhəmiyyətini uşağa açıb göstərir.
D) Bu mərhələ vaxt etibarilə yalnız bir akademik dərslə məhdudlaşmaya da bilər,

**21. Diaqnostik qiymətləndirmənin aparılmasına verilən pedaqoji tələbləri məntiqi ardıcıllıqla göstərin.**
1. Qiymətləndirmə zamanı qoyulan suallar bir - biri ilə əlaqələndirilməlidir.
2. Şagirdin ehtiyaclarını müəyyənləşdirmək üçün müəllim səyi nəzərə alınmalıdır.
3. Şagirdin bilik və bacarıqlara malik olması üzə çıxarılmalıdır.
A) 1,3,2 B) 1,2,3
C) 2,3,1 D) 1, 2

**22. Aşağıdakı fikirlərdən hansı informasiyanın müzakirəsi və təşkili mərhələsinə aiddir.**
1. Bütün bilik, bacarıq və vərdişlərin, təfəkkürün müxtəlif növlərinin (məntiqi, tənqidi, yaradıcı) səfərbərliyini tələb edir.
2. Bu mərhələ vaxt etibarilə yalnız bir akademik dərslə məhdudlaşmaya da bilər, yəni onun həyata keçirilməsi sonrakı dərslərdə də mümkündür.
3. Dərsdə əldə edilmiş bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsi məqsədini güdən sərbəst iş formasıdır.
4. Bu mərhələdə mövcud tədqiqat sualına cavabın cizgiləri aydın seçilməyə başlayır. Məlumatlar sxem, qrafik, cədvəl, təsnifat formasında təşkil oluna bilər.
5. Biliyi möhkəmləndirir, onun praktiki əhəmiyyətini uşağa açıb göstərir.
A) 4,5 B) 1,3 C) 1,4 D) 1,5

**23. "İstənilən prosesin təkmilləşdirilməsini təmin edən bir mexanizmdir" bu fikir fəal dərsin hansı mərhələsinə aiddir.**
A) Tədqiqatın aparılması
B) Qiymətləndirmə
C) İnformasiyanın müzakirəsi və təşkili
D) Yaradıcı tətbiqetmə

**24. Aşağıdakılardan biri "Azərbaycan Respublikasının ümumitəhsil sistemində qiymətləndirmə konsepsiyası"na *aid deyil.***
A) Şagird nailiyyətlərinin qiymətləndirilməsinin əsas xüsusiyyətləri.
B) Buraxılış imtahanları.
C) Qiymətləndirmə meyarları.
D) Kurikulum üzrə qiymətləndirmə.

**25. Uyğunluğu müəyyən edin.**
a) Formalaşdırıcı qiymət
b) Cəmləyici qiymət
c) Dəyişkəndir
d) Sabitdir
1. Formativ qiymət
2. Summativ qiymət
3. Diqnostik
A) 1a, c; 2b, d
B) 1b; 2a; 3c
C) 1c; 2b; 3a
D) 1b; 2c; 3a

## TEST 21

**1. Aşağıdakılardan hansı diaqnostik qiymətləndirməyə aiddir.**

A) Fənn üzrə təlimin hər hansı bir mərhələsində şagirdlərin ilkin bilik və bacarıq səviyyəsini qiymətləndirmək.

B) Təlim prosesinin hər hansı bir mərhələsi üçün müəyyən olunmuş nəticələr əsasında şagirdlərin bilik və bacarıqlarının formalaşma səviyyəsini qiymətləndirmək.

C) Təhsilin hər hansı mərhələsində (tədris vahidinin, yarımilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nailiyyətləri qiymətləndirmək.

D) Şagirdlərin təlim sahəsində irəliləyişlərinin izlənilməsini təmin edir.

**2. Holistik qiymətləndirmə sxemində bilik və bacarıqların meyarı nəyə əsasən müəyyən olunur?**

A) Mövzuya

B) Məqsədə

C) Motivasiyaya

D) Standarta

**3. Bunlardan hansı holistik qiymətləndirməyə aid edilə bilməz?**

A) Bütöv qiymətləndirmə

B) Meyara əsasən qiymətləndirmə

C) Sürətli qiymətləndirmə

D) Standarta əsasən

**4. Aşağıdakılardan hansı analitik qiymətləndirmə sxeminə *aid deyil?***

A) Şagirdin ayrı-ayrı fəaliyyət sahələri üzrə qiymətlərini müəyyənləşdirir.

B) Qiymətləndirmədə, əsasən, 4-5 ballıq şkaladan istifadə edilir.

C) Bu zaman şagirdlərin fəaliyyəti ardıcıl qiymətləndirilməklə, onların nailiyyətləri haqqında daha ətraflı informasiya verilir.

D) Bu qiymətləndirmə sürətli aparılır.

**5. Aşağıdakılardan hansı qiymətləndirmə standartlarına *aid deyil?***

A) Siniflər üzrə şagirdlərin yiyələnəcəkləri bilik və bacarıqlar əks olunur.

B) Təhsilin müəyyən mərhələsində şagirdlərin nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir.

C) Təhsilin hər hansı bir mərhələsində müəyyən olunmuş səviyyələr üzrə şagirdin yiyələnməli olduğu bilik və bacarıqların kəmiyyət və keyfiyyət göstəricisidir.

D) Məzmun standartlarının reallaşma səviyyəsini, şagirdlərin inkişafındakı dəyişiklikləri

**6. Aşağıdakılardan biri qiymətləndirmə standartlarının fəaliyyət komponentinə aid deyil.**

A) Vaxt B) Kəmiyyət

C) Keyfiyyət D) Məzmun

**7. Aşağıdakılardan biri summativ qiymətləndirilmənin nəticələrinin təhlilinə *aid deyil.***

A) Yeni qərarların qəbul edilməsində şagird nailiyyətlərinin nəzərə alınması.

B) Şagirdlərin əməkdaşlıq bacarığının müəyyənləşdirilməsi.

C) Bir qrupun nəticəsinin oxşar şəraitli digər qrupun nəticəsi ilə müqayisəsi.

D) Zaman baxımından bir qrupun nailiyyət keyfiyyətində dəyişikliklərin baş verməsi.

**8. Bunlardan hansı inteqrasiyanın "hər hansı məzmun standartlarında digər fənlərlə inteqrasiya imkanlarının nəzərdə tutulması" istiqamətinə aid deyil?**

A) Ana dili

B) Musiqi

C) Texnologiya

D) Həyat bilgisi

**9. Aşağıdakı fikirlərdən hansı *doğru deyil?***

A) İnteqrasiyada ifrata varmaq, fənlə bağlı mühüm bilik və bacarıqların tədrisindən yayındıra bilər.

B) Fənləri hansı model üzrə inteqrasiya etmək haqqında dərindən düşünmək və düzgün qərarlar qəbul etmək lazımdır.

